# QARABAĞ AZƏRBAYCANDIR!

**Mehriban Əliyevanın göstərişi ilə Heydər Əliyev Fondu Türkiyənin zəlzələ bölgəsinə humanitar yardım edir**



3

## Azərbaycan qlobal enerji təhlükəsizliyinin əsas təminatçılarındandır



3

**İLHAM ƏLİYEV: "Enerji təhlükəsizliyi məsələləri hər ölkə üçün daha çox əhəmiyyət kəsb edir"**

# SƏS

№ 023 (6706) 8 fevral 2023-cü il. Qiymәti 60 qәpik

# Ermənistanın dirəndiyi DALAN



10

## Azərbaycan vətəndaşlarının nəbzi Türkiyə ilə döyünür!



8

## Terror aktları: siyasi, ekoloji və etnik



6

## Bazarlarda qızıl qiymətinə satılan balıq kürüsü



16

# DİQQƏT:



16

**Azərbaycanda zəlzələ ola bilər?**

## Medianın inkişafı üçün ən optimal TƏKLİF



11

# Azərbaycan dünya birliyi üçün etibarlı tərəfdaşdır!

## Prezident İlham Əliyev dünən bir sıra ölkələrin ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfirlərinin etimadnamələrini qəbul edib

**Azərbaycan Prezidenti İlham Əliyev fevralın 7-də Konqo Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri David Madukanın etimadnaməsini qəbul edib. Səfir David Maduka etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib. Sonra dövlətimizin başçısı səfirlə söhbət edib. Prezident İlham Əliyev Azərbaycan ilə Konqo arasında siyasi, iqtisadi-ticari münasibətlərin genişləndirilməsi üçün imkanların mövcudluğunu qeyd edib və bu istiqamətdə əlaqələrimizin daha da fəallaşdırılmasının vacibliyini vurğulayıb.**

Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatı və digər beynəlxalq təsisatlar çərçivəsində Konqo ilə əməkdaşlıq etdiyini diqqətə çatdırıb. Azərbaycan Prezidenti Qoşulmama Hərəkatı çərçivəsində ölkəmizin sədrlik müddətinin uzadılmasına göstərdiyi dəstəyə və etimada görə Konqo tərəfinə təşəkkürünü ifadə edib. Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatının təsisatlanması istiqamətində sədr dövlət kimi fəaliyyət göstərdiyini diqqətə çatdırıb, ölkəmizin yaxın vaxtlarda Qoşulmama Hərəkatının Təmas Qrupu çərçivəsində növbəti zirvə toplantısına ev sahibliyi edəcəyini bildirib.









Dövlətimizin başçısı Qoşulmama Hərəkatı çərçivəsində BMT Təhlükəsizlik Şurasında islahatlarla bağlı müzakirələrin aparılmasının vacibliyinə toxunub, Azərbaycanın Hərəkatın sədri olan dövlətin BMT Təhlükəsizlik Şurasında rotasiya qaydasında daimi üzvü olması barədə təşəbbüslə çıxış etdiyini bildirib. Prezident İlham Əliyev bu məsələ ilə əlaqədar Qoşulmama Hərəkatına üzv dövlətlər arasında məsləhətləşmələrin aparılmasının önəminə toxunub. Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin bu il başa çatdığını xatırladaraq, ölkəmizin bu məsələni institusional mexanizm kimi formalaşdırmaq niyyətində olduğunu, Hərəkata sədrlik edəcək dövlətlərin BMT Təhlükəsizlik Şurasının daimi üzvü olmasının daha ədalətli yanaşma olacağını qeyd edib.

Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edən səfir ölkəmizin Qoşulmama Hərəkatının sədri kimi fəal iş apardığını, Konqonun Azərbaycanın bu təşkilata sədrliyini məmnuniyyətlə dəstəklədiyini bildirib. Görüşdə ikitərəfli əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb

Azərbaycan Prezidenti İlham Əliyev dünən Namibiya Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Klemens Xanduukeme Kaşuupulvanın da etimadnaməsini qəbul edib. Səfir Klemens Xanduukeme Kaşuupulva etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib. Daha sonra Prezident İlham Əliyev səfirlə söhbət edib. Dövlətimizin başçısı bildirib ki, Namibiya ilə Azərbaycan arasında müxtəlif sahələrdə əlaqələrin intensivləşdirilməsi üçün imkanlar mövcuddur. Azərbaycan Prezidenti qeyd edib ki, siyasi sahədəki əlaqələrimizə uyğun olaraq iqtisadi, ticari və digər sahələrdə də əməkdaşlığımızın genişləndirilməsi imkanlarına baxılmalıdır.

Prezident İlham Əliyev Qoşulmama Hərəkatının 2019-cu ildə Azərbaycanda keçirilmiş Zirvə Görüşündə Namibiyanın dövlət başçısının iştirakını məmnunluqla xatırladıb. Həmçinin Qoşulmama Hərəkatının sədri kimi Azərbaycana Namibiyanın göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

Dövlətimizin başçısı BMT Təhlükəsizlik Şurasında islahatlar prosesi çərçivəsində Qoşulmama Hərəkatına sədr dövlətin Təhlükəsizlik Şurasında daimi üzv kimi rotasiya qaydasında təmsil olunması mexanizminin nəzərdən keçirilməsinin Azərbaycanın təşəbbüsü olduğunu vurğulayıb. Bu xüsusda Qoşulmama Hərəkatına üzv dövlətlər arasında məsləhətləşmələrin aparılmasının vacibliyini bildirib, bu cür yanaşmanın daha ədalətli olacağını qeyd edib.

Prezidenti İlham Əliyev dünən Vyetnam Sosialist Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Danq Min Xoyun etimadnaməsini qəbul edib. Səfir Danq Min Xoy etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib. Sonra dövlətimizin başçısı səfirlə söhbət edib.

Prezident İlham Əliyev Vyetnama səfərini və keçirdiyi görüşləri məmnunluqla xatırlayıb, bu səfərin ikitərəfli əlaqələrin inkişafına mühüm töhfə verdiyini bildirib. Dövlətimizin başçısı Azərbaycan ilə Vyetnam arasında ikitərəfli səviyyədə və beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli əsasda yaxşı əməkdaşlığın həyata keçirildiyini qeyd edib. Prezident İlham Əliyev 2020-ci ildə Vətən müharibəsi zamanı beynəlxalq təşkilatlarda, xüsusilə BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı müxtəlif bəyanatların qəbul edilməsi istiqamətində səylər göstərilərkən onların qəbul olunmasının qarşısının alınmasında Vyetnamın Qoşulmama Hərəkatının üzv dövləti və BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi Qoşulmama Hərəkatının digər üzvləri ilə birlikdə ölkəmizlə həmrəylik nümayiş etdirməsinin Azərbaycan tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

Azərbaycan ilə Vyetnam arasında təhsil sahəsində çox yaxşı əlaqələrin olduğunu vurğulayan Prezident İlham Əliyev hələ sovet dövründə çoxlu sayda vyetnamlı tələbənin ölkəmizdə təhsil aldığını bildirib. Dövlətimizin başçısı Vyetnama səfəri zamanı Azərbaycandakı ali təhsil müəssisələrinin bu ölkədən olan məzunları ilə görüşdüyünü, onları Azərbaycana səfərə dəvət etdiyini xatırladıb və onların bu səfəri həyata keçirdiklərini məmnunluqla qeyd edib.

Azərbaycana səfir təyin olunmaqdan məmnunluğunu ifadə edən Danq Min Xoy Vyetnam Kommunist Partiyasının Baş katibi Nquyen Fu Tronqun salamlarını dövlətimizin başçısına çatdırıb. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Vyetnam Kommunist Partiyasının Baş katibinə çatdırmağı xahiş edib.

Səfir Prezident İlham Əliyevin Vyetnama səfərinin ikitərəfli əlaqələrimizin inkişafına mühüm töhfə verdiyini bildirib. O, Vyetnam-Azərbaycan əlaqələrinin inkişafında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hələ Sovet İttifaqının rəhbərliyində olan zaman töhfələrini məmnunluqla xatırlayıb, Ulu Öndərin Vyetnama səfərinin münasibətlərimizin inkişafında böyük rol oynadığını qeyd edib.

Prezident İlham Əliyev fevralın 7-də Laos Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Vilavan İyapohenin etimadnaməsini qəbul edib. Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim edib. Sonra Prezident İlham Əliyev səfirlə söhbət edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında yaxşı siyasi münasibətlərin olduğunu bildirib, iqtisadi-ticari əlaqələrin genişləndirilməsi üçün səylərin artırılmasının vacibliyinə toxunub. Prezident İlham Əliyev bu xüsusda müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin, həmçinin turizm imkanlarının və biznes strukturları arasında birbaşa əlaqələrin yaradılmasının vacibliyini vurğulayıb.

Dövlətimizin başçısı Azərbaycanla Laos arasında həm BMT, həm də Qoşulmama Hərəkatı çərçivəsində yaxşı əlaqələrin olduğunu və beynəlxalq təşkilatlarda qarşılıqlı dəstəyin önəmini qeyd edib. Səfir Laos Prezidenti Thonqlun Sisulitin salamlarını dövlətimizin başçısına çatdırıb. Ölkəmizdə olmaqdan məmnunluğunu bildirən səfir Bakının gözəlliyinin onu heyran etdiyini deyib. Sovet dövründə çoxlu sayda laoslu tələbənin Azərbaycanda təhsil aldığını qeyd edən Vilavan İyapohe hazırda onların Laosda müxtəlif sahələrdə uğurla fəaliyyət göstərərək ölkənin inkişafına töhfə verdiklərini bildirib.

# Azərbaycanın Baş naziri ilə Türkiyənin Vitse-prezidenti arasında telefon danışığı olub



Dünən Azərbaycanın Baş naziri Əli Əsədov ilə Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay arasında telefon danışığı olub. Telefon danışığı əsnasında Türkiyənin cənub-şərqində baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı ilə bağlı F.Oktaya dərin hüznlə başsağlığı verilib, yaralananlara və xəsarət alanların tezliklə şəfa tapmaları arzu edilib.

F.Oktay bu çətin məqamda qardaş Azərbaycanın Türkiyə ilə həmrəyliyini yüksək qiymətləndirib, təbii fəlakətin nəticələrinin aradan qaldırılması məqsədilə ölkəmiz tərəfindən davamlı şəkildə göstərilən yardıma, zəlzələ bölgəsində həyata keçirilən axtarış xilasetmə əməliyyatlarına dəstəyə görə minnətdarlığını bildirib.



## Mehriban Əliyevanın göstərişi ilə Heydər Əliyev Fondu Türkiyənin zəlzələ bölgəsinə humanitar yardım edir

Fevralın 6-da Türkiyədə baş vermiş və çoxsaylı insan tələfatına səbəb olmuş zəlzələ qurbanlarına dəstək məqsədilə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişinə əsasən, Heydər Əliyev Fondu tərəfindən qardaş ölkəyə humanitar yardım göndərilir. SİA AZƏRTAC-a istinadən xəbər verir ki, bununla əlaqədar faciədən zərər çəkmiş şəxslər üçün müxtəlif dərman preparatları, oksigen maskaları, filtrli sistemlər, sarğı materialları, onurğa taxtaları, ilkin yardım boyunluqları, xərək və s. daxil olmaqla tibbi ləvazimat və avadanlıqlar, eləcə də isti geyimlər çatdıracaq xüsusi təyyarə Türkiyəyə yola düşəcək. Fondun Türkiyəyə ezam edilən əməkdaşları zəlzələ bölgəsində faciədən zərər çəkmiş vətəndaşlara humanitar yardım çatdıracaq.

# Azərbaycan qlobal enerji təhlükəsizliyinin əsas təminatçılarındandır

## İLHAM ƏLİYEV: "Enerji təhlükəsizliyi məsələləri hər ölkə üçün daha çox əhəmiyyət kəsb edir"

***2015-ci ildən başlayaraq Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan Cənub Qaz Dəhlizi Məşvərət Şurası davamlı olaraq neçə ildir ki, Azərbaycanda keçirilir və tədbirə nüfuzlu xarici şirkətlərin, beynəlxalq təşkilatların nümayəndələri qatılır. Bu, bir daha Azərbaycanın çox mühüm enerji coğrafiyası mərkəzlərindən biri olmasını və belə bir mötəbər toplantıya ev sahibliyi etməklə Avropa İttifaqının yaxın strarteji tərəfdaşına çevrildiyini təsdiqləyir. Bu gün real faktordur ki, Cənub Qaz Dəhlizi ideyası Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi və xarici siyasət strategiyası sayəsində reallaşıb.***



Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən bu layihə əvvəldən gələcək üçün nəzərdə tutulmuşdu, layihənin ilk günlərindən potensialın genişləndirilməsi barədə artıq danışılırdı. Bu baxımdan Cənub Qaz Dəhlizi Prezident İlham Əliyevin uzaqgörən siyasətinin təzahürüdür. Belə ki, əvvəlki toplantıda olduğu kimi, fevralın 3-də Bakıda, "Gülüstan" sarayında Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarında çıxışında prezident İlham Əliyev bildirib ki, bu gün biz, əlbəttə ki, gələcəyə doğru baxırıq, yaşıl enerji ilə bağlı Məşvərət Şurası yaranıb: "Cəmi dörd ölkə var və heyət kifayət qədər kiçikdir. Lakin onun böyüməsi potensialı var. Nəinki hökumətlər, o cümlədən şirkətlər də belə mühüm təşəbbüsdə iştirak etməyə maraq göstərəcəklər".

### AZƏRBAYCAN AVROPANIN ENERJİ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ VACİB ÖLKƏDİR

Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasında dövlətimizin başçısı: "Dünya dəyişib, enerji təhlükəsizliyi məsələlərinin hər bir ölkə üçün əhəmiyyəti daha da artır və adətən görüşlərdə söylədiyimiz kimi enerji təhlükəsizliyi həqiqətən milli təhlükəsizlik məsələsidir. Yeni marşrutların qurulması və yeni mənbələrin cəlb olunmasına gəldikdə, bütün bunlar birgə səylərimizlə edilmişdir və indi görünür, bu, heç vaxt görünmədiyi kimi vacibdir. Yaxşı haldır ki, biz hər bir şeyi vaxtında etdik, vaxt itirmədik" sözləri göstərir ki, bütün işlər əvvəlcədən dəqiq planlaşdırılır və həyata keçirilir. Ən əsas məqam isə, Azərbaycan Prezidentinin tədbirdə iştirak edən ölkələrlə siyasi münasibətləri inkişaf etdirməsi, eləcə də fəal əlaqələndirmə və Avropa Komissiyası ilə əməkdaşlıq qısa müddətdə öz nəticəsini verib. Belə ki, Yunanıstanla Bolqarıstan arasında interkonnektor açılıb, Azərbaycanla Macarıstan arasında qaz təchizatı sahəsində Anlaşma Memorandumu imzalanıb. Bundan başqa, Azərbaycanla Rumıniya arasında qaz təchizatı haqqında sazişin imzalanması ilə Buxarest Cənub Qaz Dəhlizində iştirak edən ölkələrin heyətinə qoşulub, ilk dəfə olaraq Yaşıl Enerji Məşvərət Şurasının iclası keçirilib, Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya yaşıl enerjinin istehsalı və nəqli sahəsində saziş imzalayıblar. Digər bir vacib məsələ, Qara dənizin dibi ilə çəkiləcək elektrik kabelidir. Bu, Avropa qitəsində potensial əməkdaşlıq imkanları açır. Prezident İlham Əliyevin: "Əminəm ki, Rumıniya və Macarıstan yaşıl enerjini qəbul edəcək son məntəqələr olmayacaq" sözləri enerji diplomatiyasının genişlənəcəyini təsdiqləyir. Bu günə kimi, Azərbaycan Prezidenti İlham Əliyev sözü ilə əməli üst-üstə düşüb və reallaşdırmayacağı heç bir sözü deməyib. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri, Cənub Qaz Dəhlizi və digərləri yaxın tariximiz və gerçəkliyimizdir. Bütün bunlar dövlət başçımızın enerji diplomatiyasının göstəricisidir.

### AVROPA QİTƏSİNİN ENERJİ TƏHLÜKƏSİZLİYİ DAHA DOLĞUN VƏ ƏHATƏLİ ŞƏKİLDƏ TƏMİN EDİLƏCƏK

Prezident İlham Əliyev Budapeştdə Macarıstanın Baş naziri Viktor Orban ilə birgə mətbuata bəyanatında bildirib ki, yaxın keçmişdə aşkarlanan böyük yaşıl enerji potensialı da Azərbaycanın önəmini daha da artırır: "Əlbəttə ki, yaşıl enerji ilə bağlı olan və artıq icra olunan layihələr bizi Avropa üçün daha da yaxın edəcək. Hörmətli dostum qeyd etdiyi kimi, keçən ay imzalanmış sazişə əsasən, Azərbaycan yaşıl enerjisini Avropaya çatdıracaq və bu gün bu məsələlər bir daha müzakirə edildi. Bir neçə gündən sonra Bakıda keçiriləcək birinci rəhbər komitədə bu layihədə cəmləşən ölkələr - Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya bir araya gələrək gələcək fəaliyyətin konsepsiyası üzərində işləməyə başlayacaqlar".

Dövlət başçısı onu da söyləyib ki, bu, çox böyük sərmayə tələb edən layihədir: "Burada həm yaşıl enerjinin istehsalı, ötürülməsi, bazarlara çatdırılması, eyni zamanda, Qara dənizin dibi ilə kabelin çəkilməsi - bütün bu layihələr böyük maliyyə mənbəyi tələb edir, eyni zamanda, çox ciddi koordinasiyanı tələb edir." Bəli, bu gün uğurlu enerji siyasəti reallaşdıran Azərbaycan Avropanın enerji bazarında mühüm faktora çevrilib. Bu vaxta qədər əldə olunan uğurlu təcrübə, yaşıl enerji potensialının düzgün istiqamətləndirilməsi ölkəmizin cəlbediciliyini daha da artırır. Çünki Azərbaycan, həmçinin çox böyük yaşıl enerji potensialına malikdir. Ölkəmizin dənizdə külək enerjisinin potensialı 157 qiqavatdır, quruda külək və günəş enerjisinin potensialı isə 27 qiqavatdır. Həmçinin Vətən müharibəsi zamanı işğaldan azad etdiyimiz torpaqlarda enerji potensialı 10 qiqavata yaxındır. Bu potensial "yaşıl enerji" sahəsində də uğurlu əməkdaşlığın davam etdirilməsini şərtləndirir. Prezident İlham Əliyevin də söylədiyi kimi: "Bizim güclü siyasi iradəmiz və əlbəttə ki, fəaliyyətimizin uğurlu tarixçəsi var. Bizim müxtəlif formatlarda və müxtəlif ölkələrlə birgə həyata keçirdiyimiz bütün layihələr - istər Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, istər Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri, istərsə də "Cənub qaz dəhlizi" - hamısı uğurlu olmuşdur. Əminəm ki, Avropa qitəsində həm təbii qaz, həm də bərpaolunan enerji istehsalı ilə bağlı gələcək planlarımız uğurlu olacaq".

Bir sözlə, Prezident İlham Əliyev ölkəmizin enerji potensialını düzgün realizə etməklə, qlobal səyləri birləşdirməklə beynəlxalq enerji gündəliyində Azərbaycanın mövqelərini sürətlə möhkəmləndirir, rolunu artırır və Məşvərət Şurası toplantılarının keçirilməsi bir daha Azərbaycanın Avropa üçün əhəmiyyətli ölkə olduğunu təsdiqləməklə yanaşı, Azərbaycanın dünya siyasətində yerini daha da möhkəmləndirir.

***RƏFİQƏ KAMALQIZI***

# QƏRBİ AZƏRBAYCAN-QƏDİM VƏTƏNƏ QAYIDIŞ!

Tarixi araşdırmalar, mövcud faktlar təsdiq edir ki, Azərbaycan qədim tarixə malik dövlətlərdəndir. Azıx mağarasında aparılan qazıntılar və aşkarlanan insan skeletləri, saxsı qablar və digər vasitələr də bunu təsdiq edir. Sübuta yetirilir ki, Azərbaycan ərazisində erkən insan məskunlaşmaları olub. Bu baxımdan Azərbaycan Avropada erkən insanın yaşayış xəritəsinə daxil olunub. Dövlətçilik tariximizin yaşı isə 5 min illik dövrü əhatə edir, ərazisi isə 400 min kvadrat kilometrdən çox olub. Ərazilərimiz şimalda Dərbəndə, cənubda Həmədana, şimal-qərbdə isə Borçalı ellərinə qədər uzanırdı. Təəssüf ki, son iki yüz il də xalqımızın başına olmazın müsibətlər gətirildi. Ərazilərimiz parçalandı, şəhərlərimiz dağıdıldı, iki milyon insan həyatını itirdi. Ən faciəlisi ondan ibarət oldu ki, qonşuluğumuzda erməni kimi vəhşi, barbar təfəkkürlü terrorçu toplumu yerləşdirdilər. Bu vəhşi toplum böyük güclərin hərbi siyasi dəstəyinə arxalanaraq azərbaycanlılara qarşı dünyada görünməmiş və heç bir xalqın üzləşmədiyi dəhşətli faciələr, vəhşiliklər törətdilər. Yəni öz evimizdə, öz yurdumuzda özümüzə qarşı vəhşiliklər törətdilər. Min illər yaşadığımız indiki Ermənistan adlanan torpaqlarda azərbaycanlılar malından-mülkündən, torpağından, nəhayət canlarından oldular.Tarixi mənbələrə istinad etsək, bu torpaqlarda yaşamış azərbaycanlıların ulu əcdadları e.ə. 1-ci minillikdə fəaliyyət göstərmişlər. E.ə. 8-7 əsrlərdə Urartu ərazisinə daxil olan indiki Ermənistan adlanan ərazisi şimaldan gələn Kimmerlərə, Skiflərə, Saklara, Quqarlara, Şiraklara aid olmuşdur. Urartu qaynaqlarında bu ölkə Emoxi, Etuni, İrpuni və digər bölgələrin adları ilə adlanmışdır. Bizim eranın əvvəllərinə doğru bu ərazidə türkdilli hunlar, kəngətlər, bolqarlar, xəzərlər və digər soylar məskunlaşmışlar.



# Qərbi Azərbaycana qayıdış planı təsdiqləndi

### Qədim şəhərimiz İrəvan

Azərbaycanın qədim şəhəri olan İrəvan şəhəri zamanın keşməkeşli dövrlərini yaşamışdır. Elə İrəvan xanlığının əsasını 1746-cı ildə qoyan Mir Mehdi xanın hakimiyyəti heç də sakit keçməyib. Ağı vadisinin və Göycə gölünün ətrafında qurulan İrəvan xanlığı, çox keçmir ki, bölgənin böyük iqtisadi və siyasi qüdrətə malik xanlığına çevrilir. Məhz bu da Gürcüstan, Rusiya və erməni məliklərinin ciddi narahatlığına səbəb olurdu. Narahatlıq keçirən bu qüvvələr İrəvan xanlığını zəifləmək üçün hər cür təxribatlardan, eləcə də yeri gələndə, xanlığı işğal etmək arzusu ilə bölgəyə hücumlar etməkdən çəkinmirdilər. Amma bütün hallarda Mir Mehdi xan qətiyyət göstərir və birləşmiş düşmən qüvvələrini yerlərində oturmağa müvəffəq olurdu. Yüksək hərbi, siyasi təcrübəyə malik Mir Mehdi xan İrəvanı möhkəmləndirmək üçün geniş məhəllələr yaratmış, keçilməz qalalar tikdirmişdir. O dövrün məlumatlarına görə xan İrəvanda 20-yə yaxın məhəllə yaratmışdır. Bu məhəlləleri isə naiblər idarə edirdilər. Onlar məhəllələrin inkişafına, əhalinin yaşayışlarının təminatına xüsusi diqqət yetirirdilər. İrəvan xanlığının mərkəzi hərtərəfli sıldırım qayalarla əhatə olunmasına və bununla paralel olaraq Azərbaycan xanlıqları ilə, xüsusi ilə də, Şəki, Quba xanlıqları ilə dostluq əlaqələri qurmuş düşmənə qarşı birgə müharibə aparmaq haqqında birgə hərbi razılaşma əldə etmişdir. Sonradan İrəvan xanı olan Hüseynəli xan Osman sultanı ilə əlaqələr quraraq İrəvan xanlığı ilə Osmanlı imperiyasının şəhərləri arasında iqtisadi-ticarət əlaqələrinin qurulmasına nail olmuşdur. Təəssüf ki, xanlıqda baş qaldıran daxili çəkişmələr Hüseynəli Xanın Xanlıqla bağlı geniş planlarının həyata keçirilməsinə problemlər yaratmışdır. Daxili çəkişmələrdən yararlanan erməni məlikləri də xanlıq üçün təhlükə Qafqazda imperiyalar və ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi mənbəyi olan hücumlar təşkil etmişlər. Xüsusilə də, ermənilər gürcülərdən İrəvan xanlığına qarşı birgə mübarizədə istifadə etməyə çalışmışlar. İrəvan xanlığının ərazisində ermənilərin əsas dini mərkəzlərindən biri - Eçmiədzin monastırı (Üçkilsə) yerləşmişdir. Eçmiədzin kilsəsi İrəvan xanlığında çox pozucu rol oynamışdır. Regionda bu kilsə azərbaycanlılara qarşı düşmən mövqe tutmuş "beşinci kolonna" rolunu oynamışdır. XVII əsrin 60-cı illərindən başlayaraq Eçmiədzin kilsəsinin katolikosları daim Rusiya imperiyasına müraciət edərək Azərbaycan torpaqlarında erməni dövlətinin yaranmasına yardım etməyi xahiş edirdilər. Erməni katolikosları özlərini humanist mövqeli tərəf kimi göstərərək vaxtaşırı İrəvan xanlığına hücumlar təşkil edib, qarətlər, yanğınlar törədən Kartli Kaxetiya çarlığı ilə İrəvan xanlığı arasında vasitəçilik etməyə çalışıblar. Məkrli məqsədləri elə hər iki tərəfdə ermənilərin sakit yaşayışını və xarici ölkələrdən köçürülməsini təmin etməkdən ibarət olub. Müəyyən hallarda çarlığa təlimatlar və satqınlıqları hesabına Karte-Kaxetiya çarlığının İrəvan xanlığına hücum etməsinə nail olmuşlar. Məhz 1780-ci ildə Karte-Kaxetiya çarlığının İrəvan xanlığına hücum etməsində erməni kilsəsinin xüsusi rolu olmuşdur. Nəticədə, İrəvanın məhv edilməsinin qarşısını almaq üçün xanlığın Karte-Kaxetiyada siyasi asılılıqda olmasına razılıq verməklə yanaşı, hər il çarlığa vergi verməyə vəd verilmişdir. Yalnız Osmanlı imperiyasının yardımından sonra düşmənə çevrilən qonşular İrəvan üzərində iddialarından əl çəkmişlər. Bundan sonra İrəvan xanlığı əvvəlki iqtisadi qüdrətini bərpa edə bilməşdir. İrəvan xanlığında yaranan sakitlik bir qədər sonra İran şahlarının xanlığa olan hücumları ilə pozulmuşdur. 1795-ci ildə Ağa Məhəmməd xan Qacar İrəvan xanlığına hücum edərək Mirmehdi xanın nəvəsi Məhəmməd xanı hakimiyyətdən devirərək onun yerinə Əliqulu xanı İrəvan xanı təyin etmişdir. Amma Əliqulu xanın da hakimiyyəti uzun çəkməmişdir. 1979-cu ildə Ağa Məhəmməd xan Qacarın öldürülməsindən sonra Məhəmməd xan Əliqulu xanı devirərək İrəvanda hakimiyyəti ələ almışdır. O dövrün tarixi sənədlərinə əsasən, demək olar ki, İrəvan xanlığında yaşayan əhalinin 90 faizi azərbaycanlılar, 10 faizini isə erməni, gürcü və digər xalqların nümayəndələri təşkil etmişlər. 1897-ci ildə Rusiya imperiyasının Qafqazda, eləcə də, İrəvanda əhalinin siyahıya alınması zamanı əldə olunan məlumatlarda Qarabağda əsasən azərbaycanlıların yaşadıqları təsdiq olunub. Belə ki, siyahıya alınmaya görə, xanlıqda 313 min 178 azərbaycanlı 11 min 317 nəfəri ermənilər yaşamışdı. 1817-ci və 1819-cu illərdə İrəvanda olmuş ingilis arxeoloqu və səyyahı Robert Kerr Ports yazırdı ki, İrəvan xanlığının uzunluğu 200 mil, eni isə 100 mildir. Müasir erməni tarixçisi T.Akopyan da İrəvan xanlığının əhalisinin əsasən azərbaycanlılardan ibarət olduğunu və ərazisinin 24 min kvadratmetr olduğunu yazırdı. İrəvan şəhəri inzibati cəhətdən 3 məhəlləyə bölünürdü: şəhər məhəlləsi, Topbaşı məhəlləsi və Dəmirbulaq məhəlləsi. İrəvan xanlığında türkdilli azərbaycanlıların yerli xalq olması sübuta yetirilmiş faktdır. Bunu Qafqazın ali baş komandanı general Paskeviç rəsmi məlumatlarda da qeyd etmişdir. İrəvan qalasını çox çətinliklə alan general Paskeviç İrəvan xanlığında əhalinin milli tərkibi haqda verdiyi məlumatda burada 10 min azərbaycanlı, 3 min erməni ailəsinin yaşadığını qeyd etmişdir. ABŞ-dan olan professor Castin Makkarti Rusiya işğalına - 1828-ci ilə qədər İrəvan xanlığı əhalisinin 80 faizinin azərbaycanlı olduğunu göstərir. S.Şopen 1828-1832-ci illərə qədər İrəvan xanlığında əhalinin mütləq çoxluğunu müsəlmanların, yəni azərbaycanlıların təşkil etdiyini yazmışdır. Onun hesablamalarına görə, İrəvan əyalətində 16.075 ailə (81.749 nəfər) müsəlman, 4.428 ailə (25.151 nəfər) isə erməni idi. Müsəlman dedikdə S.Şopen azərbaycanlıları və müsəlman kürdləri nəzərdə tutur.

### Erməni vəhşilyi dünyanı dəhşətə gətirib

Türkmənçay və Gülüstan müqavilələri imzalandıqdan sonra ermənilər kütləvi şəkildə Azərbaycan ərazilərinə köçürülməyə başladı. XIX əsrin birinci on illiyində 350 mindən artıq erməni başqa ərazilərdən Azərbaycana köçürülüb. Qarabağ, Zəngəzur, İrəvan quberniyalarına köçürülən ermənilər burada məskunlaşdıqdan az sonra azərbaycanlıları qonşu ərazilərdən sıxışdırıb çıxarmaq üçün silahlı dəstələrə cəlb olunurdular. Ümumiyyətlə azərbaycanlılar 4 dəfə-1905-1906-cı, 1918-1921-ci, 1948-1953-cü və 1987-1991-ci illərdə Qərbi Azərbaycandan deportasiya olunublar. Azərbaycanlıların didərgin salınması ilə oraya xaricdən gətirilən ermənilər yerləşdiriliblər.

*Ardı Səh. 5*

Əvvəli Səh.4

# Qərbi Azərbaycana qayıdış planı təsdiqləndi

Qanunsuz məskunlaşma siyasətinin aparılmasına baxmayaraq yenə də ermənilər azrbaycanlılarla müqayisədə azlıq təşkil edirdilər. Misal üçün 1823-cü ildə çar Rusiyası Qarabağda əhalinin siyahıya alınmasını apararkən məlum olub ki, ərazidə azərbaycanlıların sayı 48.896 nəfər olduğu halda ermənilər cəmi 3 246 nəfər təşkil edirlər. Erməni quldur dəstələri müxtəlif xarici qüvvələrə arxalanmaqla azərbaycanlılara qarşı soyqırımı siyasəti həyata keçirməyə çalışmışlar. Bununla ermənilərin sayını artırmağa və ərazi iddialarını genişləndirməyə ümid bəsləmişlər. Xüsusi amansızlıq 20 -ci əsrin əvvəllərində daha kütləvi və amansız xarakter daşımışdır. Erməni quldur dəstələri 1918-ci ilin martınadək İrəvan qəzasının 199 azərbaycanlı kəndini, 1919-cu ilin oktyabrınadək isə Eçmiədzin qəzasına məxsus 62 azərbaycanlı kəndini yerlə-yeksan etmişlər. Minlərlə insan isə vəhşiliyin qurbanı olmuşdur. Ötən əsrdə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Moskvadakı himayədarlarının dəstəyi ilə Ermənistanın xəritəsinə daxil etməyə çalışıblar, təəssüflər olsun ki, məkrli istəklərinə qismən də olsa, nail olublar.




## Tarixi torpaqlara qayıdış uzaqda deyil




Erməni -daşnak qüvvələri 20-ci əsrin sonlarında yenidən azərbaycanlılara qarşı qəsbkar siyasətlərini işə saldılar. Xarici himayədarlarının hərbi siyasi dəstəyini qazanmaqla 300 minə yaxın azərbaycanlını Qərbi Azərbaycandan didərgin saldılar, evlərini qarət edib, mülklərini dağıtdılar, minlərlə insan yaralandı, öldürüldü. Demokratiyadan, insan hüquq və azadlıqlarından danışan beynəlxalq təşkilatlar, ayrı-ayrı aparıcı dövlətlər isə erməni vəhşiliyə, erməni vandalizmə susqunluq nümayiş etdiriblər. Ancaq tarixi saxtalaşdırmaq bu günə qədər heç bir topluma, xalqa nəsib olmayıb. Bu baxımdan da ermənilərin və onların dəstəkçilərinin Azərbaycan ərazilərini özününküləşdirmək arzuları və istəkləri iflasa uğrayacaq. Artıq bəzi beynəlxalq birliklər mövcud reallığı dərk edir və Qərbi Azərbaycanlıların öz dədə-baba yurdlarına qayıdış mübarizələrinə dəstək verirlər. Bu yerdə Ulu Öndər Heydər Əliyevin 1994-cü il fevralın 23-də Böyük Britaniya Kral Beynəlxalq Münasibətlər İnstitutundakı çıxışında qeyd etdiyi tarixi fikirlərini qeyd etmək yerinə düşərdi: ”Əgər tarixi faktları araşdırmalı olsaq, onda xatırlatmalıyam ki, indiki Ermənistan ərazisi vaxtilə Azərbaycan torpaqları idi. Bir vaxtlar bu yerlər Azərbaycana məxsus olmuş, lakin 1918-1920-ci illərdə Ermənistana keçmişdir. Bir sözlə, tarixə müraciət etməli olsaq, onda görərik ki, Ermənistan Azərbaycana çox şey qaytarmalıdır. Amma indi mən onu deyirəm ki, biz Ermənistan ərazisinə, mövcud sərhədlərə göz dikməmişik, onların iddiasında deyilik. Bununla bərabər, biz öz ərazimizin bir metrini də verməyə razılaşa bilmərik”.

Ulu Öndər Heydər Əliyevin qeyd etdiyi kimi, Ermənistan Azərbaycana çox şey qaytarmalıdır. Başlıcası, ərazilərimizi qytarmalı və 300 minə yaxın insanın öz dədə-baba yurdlarına qayıdışı təmin olunmalıdır. Əminliklə demək olar ki, Azərbaycan dövlətinin apardığı siyasət nəticəsində Qərbi Azərbaycanlılar öz yurdlarına dönəcəklər. Necə ki, 30 il işğal altında olmuş Qarbağımız və ətraf rayonlarımızı Yenilməz Sərkərdə, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz 44 gün ərzində azad etdi. Artıq böyük qayıdış başlayıb. Qısa müddət sonra əhali öz evlərinə qayıdacaqlar.

Qeyd etmək lazımdır ki, Qərbi Azərbaycana qayıdış çətin olacaq, ancaq mütləq və mütləq reallaşacaq. Çünki Azərbaycan dövləti elə bir gücə və qüdrətə malikdir ki, heç bir dövlət bu gücə qarşı çıxmağa cəsarət edə bilməz. Azərbaycan Prezidenti İlham Əliyev Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə bildirib ki, Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalıb: ”Müasir dövrümüzdə onların hüquqları bərpa edilməli və əzəli torpaqlarına qayıtmalıdırlar.Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır. Ona görə buna nail olmaq üçün biz, o cümlədən beynəlxalq müstəvidə daha fəal olmalıyıq. Hesab edirəm ki, İcmanın çox mötəbər bir rəqəmsal platforması olmalıdır, bir portalı olmalıdır. Orada həm tarixi həqiqətlər, həm tarixi abidələrimiz, ermənilər tərəfindən dağıdılan saraylar, məscidlər, şəhərlər, Azərbaycan tarixi irsinin silinməsi ilə bağlı olan faktlar öz əksini tapmalıdır”.

Prezident İlham Əliyev onu da qeyd edib ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər: ”Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb”.

Bir sözlə, Qərbi Azərbaycana qayıdış ərəfəsindəyik. Az keçməz ki, niskilli, qəribsəmiş İrəvan, Görus, Qafan, Zəngəzur və digər tarixi şəhərlərimiz, kənd və qəsəbələrimiz doğmalarının qayıdışı ilə rahat nəfəs alacaq. Torpağın yiyələrinin qayıdışı ilə məscidlərimiz, tarixi tikililərimiz, abidələrimiz bərpa olunacaq, yaşayış məskənlərimiz yenidən qurulacaq.

**İ.ƏLİYEV**

# Terror aktları:
## siyasi, ekoloji və etnik

Terrorizm müasir dövrün ən təhlükəli təzahürlərindən biridir və müasir dünyamızda buna tez-tez təsadüf edirik. Terrorizm haqqında birmənalı tərif olmasa da, mütəxəssislərin əksəriyyətinin qənaətinə görə siyasi, dini, ideoloji və iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni əməllərin, zorakılığın, gücün, hədənin tətbiq olunmasıdır. Təbii ki, real həyatda terror aktlarından daha çox günahsız insanlar, dövlət adamları ziyan çəkir və siyasi, etnik, dini və s. zəmində yaranan terrorların şahidi oluruq. Tarixin müxtəlif dönəmlərində Azərbaycan xalqı terror aktlarının, vəhşiliklərin, soyqırımların acı nəticələrini yaşamışdır. İstər etnik, istər siyasi olsun. Ermənistan tərəfindən etnik terrora məruz qalmış Azərbaycan xalqına qarşı törədilən əməllər insani əxlaqa, qanuna, beynəlxalq hüquqa ziddir. Yaşadığımız tarix göstərir ki, erməni terrorlarının ölkəmizdə sayı-hesabı yoxdur. Bu terror aktları qəddar, faşist xislətli əməllərdir ki, xalqımız bunu yaşayıb. 44 günlük Vətən müharibəsində də xalqımız ermənilərin təcavüzkar siyasəti ilə üz-üzə qaldı. Vətən müharibəsində biz ermənin vəhşi simasını bir daha görmüş olduq. 30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan beynəlxalq konvensiyalara zidd topladığı silahlarla 44 günlük Vətən müharibəsində beynəlxalq hüquq müstəvisində Ermənistanın işğalçı, eyni zamanda, terrorçu dövlət olduğunu tam şəkildə sübuta yetirən yetərincə faktlar mövcuddur. Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə mülki əhalinin kompakt yaşadığı ərazilərə raket zərbələri endirməsi Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını ortaya qoymuş oldu. Vətən müharibəsi zamanı düşmənin xain atəşi nəticəsində təkcə Tərtərdə ümumilikdə 16 mülki şəxs qətlə yetirilib, 63 nəfər yaralanmışdır. Müharibə zamanı, həmçinin Tərtər şəhəri də daxil olmaqla, rayonun 40 yaşayış məntəqəsinə 16 min 277 tank, top, qrad, minomyot mərmisi, 21 qadağan olunmuş raket atılmışdı. Nəticədə Tərtərdə 82 çoxmərtəbəli yaşayış binasına, 5949 fərdi evə, 184 sahibkarlıq və 301 qeyri-yaşayış obyektinə, 17 məktəbə, 11 uşaq bağçasına, 1 texniki peşə məktəbinə, 1 musiqi məktəbinə, 30 inzibati binaya və 20-yə yaxın mədəniyyət və səhiyyə müəssisəsinə ziyan dəymişdir. Mülki əhaliyə atəş açmaq isə bütün beynəlxalq konvensiyalarla qadağan olunur və yolverilməzdir. Ona görə də, Ermənistanın beynəlxalq qurumlar qarşısında cavab verməlidir. Azərbaycan 44 günlük Vətən müharibəsində uğurlu döyüş əməliyyatı apardı və tarixi ədalət bərpa olundu. Təcavüzkar ermənilərin çirkin siyasətləri iflasa uğradı. Dünyanı təəccübləndirən, hərb tarixində yeni səhifə olan müharibədə Azərbaycan QALİB oldu.

### BİOENERGETİK VARLIQ OLAN İNSAN TƏBİƏTLƏ BİRGƏ TƏMASDADIR

İnsan təbiətin bir parçası, bir hissəsi və onun ən ali üzvüdür. Bioenergetik varlıq olan insan təbiətlə birgə təmasdadır, yaşayır və inkişaf edir. Demək, təbiətsiz canlı varlıqlar, insan məhv olar. Təbiətə gözəllik, yaraşıq verən, onu zənginləşdirən isə meşələridir. Bu da bizim sağlamlığımız üçün çox vacib şərtlərdən biridir. Biz yaşıllığı nə qədər çox artırsaq hava o qədər təmiz olar, meşələrin qırılması təbiətin məhvi deməkdir. Meşələrin qırılması oksigenin azalmasına, ekologiyanın pozulmasına gətirib çıxarır ki, bu da təbiətin məhvi deməkdir. Ulu Öndər Heydər Əliyev deyirdi: ”Əgər kimsə sağlam ağacı kəsirsə, o nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o öz ailəsinə, özü-özünə xəyanət edir. Ona görə də, siz hər bir ağacın qorunması uğrunda mübarizə aparmalısınız...”.

### ”54 MİN HEKTAR MEŞƏ FONDU MƏHV EDİLİB, QIRILIB VƏ BU, ERMƏNİ CİNAYƏTİNİN NÖVBƏTİ NÜMUNƏSİDİR”

Ölkəmizdə təbiətə, meşələrə münasibət dövlətimiz tərəfindən hər zaman diqqətdə olub. Ekolji tarazlığı qorumaq baxımından diqqətdə saxlanılır. Azərbaycan Respublikası Prezidentinin 22 may 2003-cü il tarixli Sərəncamı ilə meşələrin bərpa olunmasına və artırılmasına dair Milli Proqram təsdiq olunmuşdur. Bu proqrama əsasən, ildə orta hesabla 10 min hektar sahədə yeni meşələr salınıb və meşə bərpa tədbirləri həyata keçirilib. Ekoloji mühitin əsas tərkib hissələrindən hesab olunan meşələr qlobal ekoloji problemlərdən hesab olunan iqlim dəyişmələrinin, səhralaşma proseslərinin genişlənməsinin, bioloji müxtəlifliyin azalmasının, atmosferdə qaz balansının pozulmasının qarşısının alınmasında böyük əhəmiyyət daşıyır. Bununla yanaşı, Azərbaycanın sosial-iqtisadi, mədəni, müdafiə sahəsindəki inkişafında da əhəmiyyətli rola malikdir.

Qeyd edək ki, Ermənistanın təcavüzü nəticəsində meşələrimizə külli miqdarda ziyanlar vurulub. Belə ki, 30 ilə yaxın bir zamanda işğalda olan Kəlbəcər, Laçın, Zəngilan kimi ərazilərdə meşələr vəhşicəsinə qırılaraq talan edilmişdir. Orada bitən çox qiymətli palıd, fısdıq, vələs, ağcaqayın, ayı fındığı, qoz, şərq çinarı kəsilərək Ermənistana daşınmışdır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində demişdir: ”İndi azad edilmiş ərazilərdə 1988-ci ildə meşə fondu 228 min hektar təşkil edirdi, 2020-ci ildə isə cəmi 174 min hektar. Yəni, 54 min hektar meşə fondu məhv edilib, qırılıb və bu, erməni cinayətinin növbəti nümunəsidir”. Dövlət başçısı azad edilmiş torpaqlarda, eyni zamanda, dövlət təbiət qoruqları və yasaqlıqların da olduğunu bildirib: ”Laçın rayonunda Qaragöl Dövlət Təbiət Qoruğu 1987-ci ildə yaradılıb, 240 hektar sahəsi var idi, tamamilə məhv edilib, talan olunub və bütün ağaclar qırılıb. Zəngilan rayonunda Bəsitçay Dövlət Təbiət Qoruğu 1974-cü ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb. Bu, Avropada unikal meşə sayılır və burada nadir çinar ağacları var idi. Bu qoruq 107 hektarı əhatə edib, indi isə cəmi 42 hektarı qalıb. Bu, erməni vəhşiliyinin növbəti təzahürüdür. Bu, onu göstərir ki, onlar başa düşürdülər və bilirdilər ki, bu torpaqlarda müvəqqəti oturublar. Onlar bizim evlərimizi dağıdıblar, tarixi abidələrimizi dağıdıblar, məscidlərimizi dağıdıblar, meşələrimizi də dağıdıblar. Nadir çinar meşəsindən cəmi 42 hektar qalıb”.

Əlbəttə ki, ermənilərin Azərbaycanın flora və faunasına vurduğu ziyan canlı təbiətə böyük bir zərbədir və bu vəhşilikdir. Bir ağacı becərmək, ərsəyə gətirmək onilliklərin hasabına mümkün olduğu halda, bir neçə saat ərzində canlı təbiətə təcavüz edən ermənilər onu məhv edirlər. 1969-cu ildə yaradılan Qubadlı Dövlət Təbiət Yasaqlığının 1988-ci ildə sahəsi 8500 hektar olduğu halda, 2020-ci ildə bu 6923 hektar olub. 1577 hektarı erməni təcavüzkarları dağıdaraq, bunu talan ediblər. Laçın Dövlət Təbiət Yasaqlığı. Zəngilan rayonunda Arazboyu Dövlət Təbiət Yasaqlığı erməni təcavüzünə məruz qalıb.

Kəlbəcər ərazisində adı ”Qırmızı Kitab”a salınmış neçə-neçə flora faunamıza aid olan qiymətli nümunələr var. Adı ”Qırmızı Kitab”a salınmış Kəlbəcər rayonunda yerləşən ayıfındığı növündən ibarət 968 hektar meşə qırılaraq mebel istehsalı üçün Ermənistana göndərilmişdi. Erməni separatçı qüvvələri tərəfindən ekoloji tarazlığın pozulmasını əks etdirən reallıqlardan biri hələ sovetlər birliyində yaşadığımız illərdə Ermənistan tərəfindən Qarabağın Topxana meşəsində qiymətli ağacları vəhşicəsinə qırılması faktıdır.



### ZOD MƏDƏNİNİN İSTİSMARI NƏTİCƏSİNDƏ TƏKCƏ 2019-CU İLDƏ 52 MİLYON ABŞ DOLLARI QAZANIB

Onu da bildirək ki, ermənilər Azərbaycan işğal altında olan bütün əraziləri kimi, Kəlbəcəri də dağıtmış, onun tarixi abidələrini darmadağın etmişdir. Kəlbəcər rayonu faydalı qazıntılarla, o cümlədən qızıl, xrom yataqları ilə zəngin olan diyardır. Sənaye əhəmiyyəti olan civə ehtiyatları Kəlbəcər rayonundakı Şorbulaq və Ağyataqda yerləşir. Söyüdlü - Zod qızıl mədəni tarixə uzun əsrlərdir məlumdur. Kəlbəcər rayonu ərazisində sənaye əhəmiyyətli ehtiyatları 112,5 ton olan və istismar olunan Söyüdlü (Zod) və ehtiyatları 13 tondan çox olan Ağduzdağ və Tutxun qızıl yataqları 27 il idi ki, Ermənistan respublikası tərəfindən talan edilirdi. İşğal edilmiş ərazilərdə 155 ada müxtəlif növ faydalı qazıntı yataqları mövcud olub. Ermənilər bu ehtiyatlardan daha çox qızılı talan ediblər. Zod mədəninin qanunsuz istismarı nəticəsində Ermənistan büdcəsi təkcə 2019-cu ildə 52 milyon ABŞ dolları qazanıb. Qeyd etdiyimiz kimi, biz təbiətin bir parçasıyıq. Onu qorumaqda hər kəs məsuliyyətlidir. Ölkəmizi, dünyamızı yaşıllıqlara qərq etməliyik. Əbəs deyil ki, müasir dünyamızı narahat edən məsələlər sırasında zəngin və fərqli ətraf mühitin, planetimizin qorunması diqqətdədir.

### ”DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏRƏ QARŞI TERROR HÜCUMU QƏBULEDİLMƏZDİR!”

Azərbaycan xalqı zaman-zaman terror aktlarından əziyyət çəkib. Bu günlərdə Azərbaycanın İrandakı səfirliyinə qarşı törədilən silahlı hücum Azərbaycan ictimaiyyəti tərəfindən kəskin hiddətlə qarşılandı. Bu terror aktının sülhsevər siyasəti ilə dünyada tanınan Azərbaycanın səfirliyinə qarşı törədilməsi bir cinayətdir. Bu hücum beynəlxalq hüququn bütün normalarının kobud şəkildə pozulması deməkdir. Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə silahlı hücumun olması nəticəsində mühafizə xidmətinin rəisinin qətlə yetirilməsi və səfirliyin iki nəfər mühafizə əməkdaşının da hücumun qarşısını alarkən yaralanması terror aktıdır. Əlbəttə ki, belə bir hadisənin törədilməsində İran hakimiyyəti məsuliyyət daşıyır. Məlumdur ki, 1961-ci il aprelin 18-də qəbul olunmuş diplomatik əlaqələr haqqında Vyana Konvensiyasında müəyyən edilmiş müddəalara əsasən, Azərbaycan Respublikasının səfirliyinin binasının və akkreditə olmuş əməkdaşlarının təhlükəsizliyini təmin etmək məhz İran dövlətinin də üzərinə düşən öhdəlikdir. Bu hadisə bir daha İranın terroru dəstəklədiyini nümayiş etdirmiş oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizin Tehrandakı səfirliyinə xain hücumla əlaqədar tvitərdə paylaşımda Tehrandakı səfirliyimizə qarşı törədilmiş terror aktını şiddətlə qınayaraq belə deyirdi: ”Bu terror aktının tezliklə araşdırılacağını və terrorçuların cəzalandırılacağını tələb edirik. Diplomatik nümayəndəliklərə qarşı terror hücumu qəbuledilməzdir!” Dövlət başçımız bu hücumu beynəlxalq hüquq normalarına sığmayan qatı cinayət olaraq qiymətləndirib. Bu terror aktı tezliklə araşdırılacaq və terrorçular öz layiqli cəzalarını alacaqlar. İrandakı diplomatik missiyamıza qarşı əvvəllər də təhdid cəhdləri baş verib. Vurğulamaq yerinə düşər ki, son zamanlar İranda ölkəmiz əleyhinə anti-Azərbaycan kampaniyası aparılır. 44 günlük Vətən müharibəsində əldə olunan şanlı Qələbə və regionda yaranan reallıqlar fonunda ölkəmizin inkişafını bir sıra dövlətlər kimi İran da həzm edə bilməyib. İranın Ermənistana açıq dəstək ifadə etməsi, rəsmi səviyyəli səfərlər bu dövlətin anti-Azərbaycan siyasət yürütdüyünü açıq-aydın göstərir. Hüquqi və demokratik dövlət olan Azərbaycan tərəfi günahkarların müəyyən edilərək layiqli cəza almasını təmin etmək üçün müvafiq beynəlxalq mexanizmlərin verdiyi bütün imkanlardan istifadə edəcəkdir.

### ”AZƏRBAYCAN VAHİDDİR, SƏRVƏTİNƏ SAHİBDİR!”

Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını, ”Qızılbulaq” və ”Dəmirli” yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edən azərbaycanlı könüllü gənclər və ekoloqlar tərəfindən Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində təşkil olunan etiraz aksiyasının başlanmasında artıq iki aya yaxın vaxt ötür. Ekofəallar hər gün olduğu kimi, səhəri Dövlət Himinin səsləndirilməsi ilə açıb, vətənpərvər ruhda mahnılar ifa edirlər. Aksiya iştirakçıları Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılması ilə bağlı Azərbaycan, rus və ingilis dillərində mütəmadi olaraq plakatlar qaldırır, ”Azərbaycan milləti qoruyacaq sərvəti!”, ”Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!”, ”Azərbaycan vahiddir, sərvətinə sahibdir!”, ”Ekocinayətə son!” kimi şüarlar səsləndirirlər. Ekoaksiyanın keçirildiyi ərazi humanitar məqsədlərlə istifadə olunan avtomobillərin keçidi üçün tam açıqdır.

Xalqımız faydalı qazıntılarımızı vəhşicəsinə talayanlara dünya ictimaiyyətinin münasibət bildirməsini tələb edir. Qarabağda aranı qarışdıran A.Arutunyan, R.Vardanyan kimi şərəfsiz ünsürlər dünya ictimaiyyəti qarşısında cavab verməlidirlər. Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələri və ekoloqların etiraz aksiyası artıq iki aya yaxındır ki, Laçın-Xankəndi yolunda baş tutan bu aksiya bir daha xalqımızın monolit birliyini sübut edir.Sülhməramlıların rəhbərləri və havadarları susmağa üstünlük verdilər. Özlərini dünyaya məzlum, yazıq xalq kimi təqdim edən ermənilər isə məntiqsiz bəyanatlarla dünya ictimaiyyətini çaşdırmağa çalışırlar. Torpaqlarının işğaldan azad olunması üçün üç mindən artıq şəhid verən xalqımız bugün bu talana ”dur!” deyir.

*Nəzakət ƏLƏDDİNQIZI*

ŞƏRH+AKTUAL

# Nə Fransa Aİ demək deyil, nə də Aİ Fransanın özəl siyasi əmlakı sayılmır!

**Dünyada cərəyan edən qlobal siyasi-iqtisadi kataklizmlər, böhranlar isə durmadan artır və söz yox ki, Azərbaycanın mövqeyi və etibarlılıq prinsipinə arxalanan Avropa İttifaqı ölkələri, hətta rəsmi olarsa belə, Parisin tələblərinə əhəmiyyət verməyəcəklər**

**Təqribən bu yaxınlarda energetika üzrə avrokomissar Kadri Simson Azərbaycan Prezidenti İlham Əliyevlə görüşündə bəyan etdi ki, Brüssel Azərbaycanın yardımını yüksək qiymətləndirir və onunla energetika sahəsi üzrə əməkdaşlığın genişləndirilməsinə hazırdır. 2022-ci ilin oktyabrında Sofiyada Yunanıstan-Bolqarıstan interkonnektorunun açılışı zamanı Azərbaycan Prezidenti İlham Əliyev bəyan etdi ki, Bakı 2027-ci ildə Avropanın qaz təchizatını 20 milyard kubametr və daha çox ikiqat artırmağı planlaşdırır. Əbəs deyil ki, həmin mərasimdə iştirak edən Avrokomissiyanın sədri Ursula fon der Lyayen Azərbaycanı Aİ-nin etibarlı və həlledici partnyoru adlandırıb**

### Fransalı senator Bruno Retayo açıq şəkildə bəyan edir ki, o, Aİ ilə Azərbaycan arasındakı enerji əməkdaşlığının genişləndirməsi planına qarşıdır

Lakin daha bir məqam budur ki, bir çox sağlam düşüncəli avropalı siyasilərdən başqa onların arasında tamamilə əks istiqamətdə qənaətə gələnlər də var və onların bir çoxu nədənsə fransız deputatlarıdır. Daha dəqiq vurğulasaq, anti-Azərbaycan düşüncəli fransız deputatlar. Misal üçün, fransalı senator Bruno Retayo açıq şəkildə bəyan edir ki, o Aİ ilə Azərbaycan arasındakı enerji əməkdaşlığının genişləndirməsi planına qarşıdır. Əbəs deyil ki, o, bu planı "ermənilərin kürəklərinə vurulan zərbə" kimi qiymətləndirib. Üstəlik, Fransada bu cür düşünən bir şəxslər var ki, onlar məhz zəngin erməni diasporundan qidalanırlar. Əslində, bu kimi təxribat xarakterli bəyanatlarla çıxış edən fransız deputatların erməni diasporundan yararlanmamalarını düşünmək doğru olmazdı, əks halda, bir fransız deputatın Aİ ilə münbit əməkdaşlıqlar quran uzaq Azərbaycanla prinsip aparmasına nə halət olardı..?

### İqor İqnatçenko: "Unutmayaq ki, bir sıra fransız siyasətçilərin ayrı-ayrılıqda səsləndirdikləri fikirləri Fransa prezidentinin və hökumətinin rəsmi mövqeyi kimi qiymətləndirmək olmaz"

SİA xəbər verir ki, rusdilli auditoriyaya məxsus caliber saytı da həmin mövzuya toxunaraq Rusiyanın tanınmış frankoşünası, tarix elmləri namizədi, Rusiya Elmlər Akademiyasının İctimai elmlər institutunun dosenti İqor İqnatçenkodan mövzu ilə bağlı münasibət öyrənib.

Məhz o da xatırladıb ki, "Respublikaçılar" partiyasını təmsil edən Retayo təmsil olunduğu qanunverici qurum vasitəsi ilə Fransanın Cənubi Qafqazda ermənipərəst siyasət yürüdən aparıcı senatorudur. "Retayo eyni zamanda Fransa senatının "Dağlıq Qarabağ" üzrə beynəlxalq informasiya qrupunun sədridir. O, 2020-ci ildə, Fransa parlamentinin yuxarı palatasında "Dağlıq Qarabağın müstəqilliyinin tanınması" haqqında qətnamənin qəbul olunması üçün canfəşanlıq göstərən əsas təşəbbüskarlardan biridir", deyə İqnatçenko xatırladıb.

Rusiyalı politoloq hesab edir ki, senatda Ermənistanın maraqlarından çıxış edən ayrıca qrup fəaliyyət göstərir və onlar parlament üzərindən Fransa hökumətinə təzyiqlər göstərirlər. SİTAT: "Bundan əlavə, unutmayaq ki, bir sıra fransız siyasətçilərin ayrı-ayrılıqda səsləndirdikləri fikirləri Fransa prezidentinin




və hökumətinin rəsmi mövqeyi kimi qiymətləndirmək olmaz. Lakin Fransanın son vaxtlar kifayət qədər gərgin və demək olar ki, düşmənçilik münasibəti göstərdiyi Azərbaycanı Türkiyənin proksi-gücü kimi görməsi başqa məsələdir. Situasiya ağırlaşır və bununla yanaşı, Fransa prezidenti Emmanuel Makronun Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla şəxsi münasibətləri də artıq çox aşağı səviyyədədir. Ona görə Makronun prezidentliyi dövründə Fransa ilə Azərbaycan arasında münasibətlərin yaxşılaşacağını ehtimal etmək çox çətindir".

### "Mövcud mərhələdə fransız hökumətinin Brüsselin Bakı ilə razılaşmasını pozması yönündə Aİ-yə təzyiq göstərəcəyi çətindir"

Onun sözlərinə görə, Aİ-nin Azərbaycanla münasibətlərini korlaya və enerji əməkdaşlığını poza biləcək ermənipərəst mövqe tutubtutmayacağını demək çətindir.

SİTAT: "Birincisi, ayrı-ayrı şəxslərin bəyanatlarını rəsmi Parisin mövqeyi kimi hesab etmək heç cür olmaz. Ona görə də, mövcud mərhələdə fransız hökumətinin Brüsselin Bakı ilə razılaşmasını pozması yönündə Aİ-yə təzyiq göstərəcəyi çətindir. Bundan başqa, Aİ enerji təhlükəsizliyi və enerji resurslarının diversifikasiyasının təchizatı problemindən narahatdır. Belə bir praqmatik yanaşmanın nə qədər saxlanılacağını isə hələ gələcəkdə aydınlaşdırmaq lazım olacaq. Lakin düşünürəm ki, indi Fransanın Azərbaycanla enerji əməkdaşlığı məsələsində Aİ ilə qarşıdurmaya gedəcəyi barədə danışmaq çox tezdir", İqnatçenko sonda bildirib.

### Aİ-də elə ölkələr təmsil olunur və deputatlar da var ki, onlar rəsmi Bakının Avropanın enerji təhlükəsizliyinin təminatı yönündəki fəaliyyətini paralel olaraq həm də xilasları kimi görürlər

Göründüyü kimi, buradan həm də belə bir nəticə hasil etmək olar ki, əslində, Fransa, yaxud daha dəqiq desək, ayrı-ayrı fransız ermənipərəst deputatlarının Azərbaycanın Aİ ilə enerji sahəsindəki əməkdaşlığına qarşı hər hansı təsir göstərmək gücləri elə də ciddi əhəmiyyət daşımır. Çünki nə Fransa Avropa İttifaqının tamamı deyil, nə də Avropa İttifaqı Fransanın tamamı, ya da özəl siyasi əmlakı sayılmır. Bu gün Aİ-də elə ölkələr təmsil olunur və deputatlar da var ki, onlar rəsmi Bakının Avropanın enerji təhlükəsizliyinin təminatı yönündəki fəaliyyətini paralel olaraq həm də xilasları kimi görürlər. Dünyada cərəyan edən qlobal siyasi-iqtisadi kataklizmlər, böhranlar isə durmadan artır və söz yox ki, Azərbaycanın mövqeyi və etibarlılıq prinsipinə arxalanan Aİ ölkələri, hətta rəsmi olarsa belə, Parisin tələblərinə əhəmiyyət verməyəcəklər.

*Rövşən RƏSULOV*

# "Həyat dəyərlidir, onu narkotikə qurban vermə!" mövzusunda tədbir keçirilib

Fevralın 7-də Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun 2023-cü il üçün birgə Tədbirlər Planına uyğun olaraq YAP Mərkəzi Aparatının və Yasamal rayon təşkilatının birgə təşkilatçılığı ilə "Həyat dəyərlidir, onu narkotikə qurban vermə!" mövzusunda interaktiv təlim keçirilib.







Əvvəlcə ulu öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi naminə canlarını qurban vermiş şəhidlərimizin, eləcə də qardaş Türkiyədə təbii fəlakət nəticəsində həlak olmuş bacı və qardaşlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri giriş sözü ilə açan YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev narkomaniya ilə mübarizənin sağlam cəmiyyətin formalaşması üçün zəruri şərtlərdən olduğunu bildirib. Onun sözlərinə görə, cəmiyyətdə "ağ ölüm" kimi tanınan narkomaniya bəlası insan həyatında sağalmaz fəsadlar yaradır. Bu səbəbdən də Azərbaycanda narkomaniyaya qarşı sistemli mübarizə aparılır.

YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva bildirib ki, narkomaniya ilə mübarizə və onun profilaktikası mühüm məsələ olmaqla yanaşı, sağlam gəncliyin yetişməsində ən vacib amillərdən biridir. Gənclərin bu kimi zərərli vərdişlərdən uzaq olması üçün maarifləndirmə tədbirləri davamlı xarakter daşımalıdır. Prezident İlham Əliyevin sərəncamı ilə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunduğunu xatırladan Z.Musayeva Tədbirlər Planına uyğun olaraq "Heydər Əliyev İli" çərçivəsində birgə tədbirlərin keçirilməsinin nəzərdə tutulduğunu deyib. O qeyd edib ki, ulu öndər Heydər Əliyev Azərbaycan gəncliyini hər zaman güclü və sağlam görmək istəyirdi. Ulu Öndərin bu istiqamətdə müəyyənləşdirdiyi siyasəti hazırda Prezident İlham Əliyev uğurla davam etdirir.

Tədbirdə Yasamal rayon İcra Hakimiyyəti başçısı yanında fəaliyyət göstərən Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə komissiyanın katibi Rasim Əliyev çıxış edərək Yasamal rayonunda bu istiqamətdə görülən işlərdən danışıb.

Çıxış edən Səhiyyə Nazirliyi Respublika Narkoloji Mərkəzinin həkim-narkoloqu Rövşən Kərimli narkotik maddələrin insan sağlamlığı üçün törətdiyi fəsadlardan ətraflı bəhs edib. O, gəncləri bu bəladan uzaq olmağa çağırıb.

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev çıxışında maarifləndirmə işlərinin narkomaniyaya qarşı mübarizədə ən güclü vasitə olduğunu bildirib. Onun sözlərinə görə, "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın otuz səkkiz bəndi məhz maarifləndirmə məsələlərinə həsr olunub. "Narkomaniya insanın həyatını məhv edir. Narkotik maddələrdən asılılıq insanın ailəyə, cəmiyyətə bağlılığını azaldır və nəticədə onu cəmiyyət üçün faydasız fərdə çevirir. Belə insanlar öz yaxınlarını da narkotik maddələrin istifadəçisinə çevirirlər. Buna görə də gənclər narkomaniyanın nə qədər zərərli və təhlükəli olduğunu bilməlidirlər", - deyə R.Allahverdiyev vurğulayıb.

Tədbirdə, həmçinin Yasamal rayon Polis idarəsinin Narkotiklərə qarşı mübarizə bölməsinin rəisi vəzifəsini icra edən polis mayoru Anar Şıxəliyev çıxış edərək narkomaniyaya qarşı mübarizə ilə bağlı statistik məlumatları diqqətə çatdırıb. Sonra tədbir iştirakçılarının sualları cavablandırılıb.

# Azərbaycan vətəndaşlarının nəbzi Türkiyə ilə döyünür!

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları son zamanların hadisələrində, ən çətin məqamlarda özünü bir daha doğrultmuş oldu. Azərbaycanın 44 günlük Vətən müharibəsinin od püskürən günlərində Türkiyə dost ölkə olaraq, Azərbaycanla həmrəylik nümayiş etdirdi. Dərdimizə, kədərimizə şərik oldu. Müharibənin ilk günündən sonuna qədər "Can Azərbaycan" deyib, yanımızdan bir an belə kənarlaşmadı. Mənəvi dəstəyi, gücü ilə dünyaya səs saldı ki, Türkiyə istənilən vəziyyətdə qardaş dediyi ölkənin - Azərbaycanın yanındadır. Belə də oldu. Qələbə sevincimizi birgə yaşadıq və bu gün Azərbaycanın işğaldan azad olunan ərazilərində Azərbaycan və Türkiyə bayraqları qoşa dalğalanır. Bundan fərəhləndirici və qürurverici nə ola bilər ki? Bu gün Azərbaycan da Türkiyəyə qarşı olan sevgisi ilə onun yanındadır.

**Prezident İlham Əliyev: "Bu, böyük fəlakətdir və ölkəmiz Türkiyənin bu dərdinə şərik çıxır"**

Bildiyimiz kimi, qardaş Türkiyədə baş vermiş güclü zəlzələ minlərlə insanın həyatına son qoymaqla yanaşı, onun infrastrukturuna ciddi zərbə vurub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək, Türkiyədə baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla bağlı xəbərin Azərbaycanı çox sarsıtdığını və kədərləndirdiyini bildirib. Prezident İlham Əliyev zəlzələ zamanı həlak olanlarla bağlı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana, onların ailələrinə və qardaş Türkiyə xalqına şəxsən öz adından və xalqımız adından başsağlığı çatdırıb, yaralananların tezliklə şəfa tapmasını dilədiyini bildirib. Azərbaycan Prezidenti qeyd edib ki, bu, böyük fəlakətdir və ölkəmiz Türkiyənin bu dərdinə şərik çıxır. Dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanındadır. Dövlətimizin başçısı onu da vurğulayıb ki, onun tapşırığına əsasən, 420 nəfərdən ibarət xilasedici heyət artıq qardaş ölkəyə göndərilib və hadisə yerinə çatan kimi Türkiyədən olan həmkarları ilə birlikdə dərhal fəaliyyətə başlayacaq. Prezident İlham Əliyev vurğulayıb ki, ehtiyac duyulan ləvazimatlarla bağlı yardım da yaxın vaxtlarda qardaş ölkəyə yola salınacaq. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Türkiyədə baş vermiş zəlzələ ilə əlaqədar rəsmi instaqram səhifəsində paylaşım edib. Mehriban xanım Əliyevanın paylaşımında bildirilir: "Türkiyənin cənub-şərqində baş vermiş güclü zəlzələnin nəticələri barədə xəbərləri dərin kədər hissi ilə qarşıladım. Allah faciə zamanı həlak olanlara rəhmət eləsin. Onların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Yaralananların və xəsarət alanların tezliklə şəfa tapmasını arzulayıram. Uca Tanrıdan bütün Türkiyə xalqına güc və səbir diləyirəm!".






### AZƏRBAYCAN HƏR ZAMAN QARDAŞ TÜRKİYƏNİN YANINDADIR

Qardaş Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Fövqəladə Hallar Nazirliyinin (FHN) yardımlarından ibarət növbəti iki təyyarə qardaş ölkəyə yola salınıb. Təyyarələrdən biri ilə FHN-in hər cür tibbi avadanlıq və ləvazimatlarla təchiz olunmuş mobil səhra hospitalı göndərilib. Hospital 4 funksional bölmədən - qəbul-çeşidləmə, laboratoriya, cərrahiyyə və intensiv terapiya bölməsindən, 3 köməkçi konteynerdən və 3 hava ilə doldurulan moduldan ibarətdir. Mobil səhra hospitalı ən ağır yaralı və xəstələrin müayinə, əməliyyat və müalicəsi üçün müvafiq şəraitlə təmin olunub. FHN-in peşəkar tibbi heyətinin xidmət göstərəcəyi hospital bütün lazımi dərman və preparatlarla təchiz edilib. İkinci təyyarə ilə isə dağıntılardan ziyan çəkmiş insanların yerləşdirilməsi üçün çadırlar, yataq dəstləri, qızdırıcılar və digər avadanlıqlar yola salınıb. Qeyd edək ki, 34 nəfər tibbi, 7 nəfər qeyri-tibbi olmaqla 41 nəfərlik heyət qardaş ölkəyə yola düşüb. Əlbəttə ki, bu gün hər bir Azərbaycan vətəndaşının nəbzi Türkiyə ilə döyünür. Bütün azərbaycanlılar bu gün orada, türk qardaşlarına hansısa bir şəkildə kömək göstərmək istəyir.

### BƏŞƏR ÖVLADINA DƏHŞƏTLİ FACİƏLƏR YAŞADAN TƏBİİ FƏLAKƏTLƏR

Əlbəttə ki, zəlzələ təbiət hadisəsidir və heç bir dövlət bundan sığortalanmayıb.












Tarix boyu insanlar bunun acısını yaşamışlar. Minlərlə insanların həyatına faciə yaşatmışdır zəlzələlər. Azərbaycanda müxtəlif vaxtlarda baş vermiş dəhşətli zəlzələlər insanı heyrətləndirir. Təbiət hadisəsindən bəşər övladı bu qədər əzab çəkərmi? Azərbaycanda baş vermiş ən böyük 10 zəlzələləri xatırlatmaq yerinə düşər. 1667-ci ildə 6.9 bal gücündə Şamaxı zəlzələsi nəticəsində minlərlə insan dünyasını dəyişib. Bu zəlzələ Azərbaycan tarixində ən dəhşətli zəlzələ kimi yer alıb. Şamaxı şəhəri və ətraf regionlar həmişə seysmoaktiv zona hesab olunub. Təkcə 1806-1902-ci illər ərzində şəhərdə 9 güclü zəlzələ baş verib ki, bunların ən güclüsü 1859-cu ildə baş vermiş Şamaxı zəlzələsi olub. Bu zəlzələ nəticəsində şəhər tamamilə dağılmış, çoxlu sayda insan həlak olmuş, Şamaxı quberniyasının mərkəzi Şamaxı şəhərindən Bakıya köçürülmüş və quberniyanın adı uyğun olaraq dəyişdirilmişdi. Bu zəlzələdən bir il sonra, 1860-cı ildə Şamaxıda tədqiqatlar aparan alman geoloqu və professoru German Abix Şamaxıda daha bir güclü və dağıdıcı zəlzələnin baş verə biləcəyi proqnozunu vermişdi. Buna baxmayaraq, imperiya rəhbərliyi bu xəbərdarlıqları qulaqardına vuraraq, Şamaxı şəhərində tikinti işlərini genişləndirərək burada əhalinin sayının artmasına şərait yaradırdı. 1902-ci il zəlzələsi baş verən ana qədər şəhərdə 22.000 sakin yaşayırdı. 1902-ci il yanvar ayının 31-də gündüz saat 12 radələrində, baş vermiş sonuncu təbii fəlakət zamanı bu antik şəhər tamamilə dağılıb, maddi mədəniyyətimizin sonuncu ən unikal nümunələri də yerlə yeksan olmuş, torpağın dərin qatlarına gömülüb. Təsadüfi deyil ki, o zamanın bir sıra mətbuat nümunələri bu təbii fəlakəti ”Qiyamət günü” ilə müqayisə edərək onun dəhşətləri barədə məlumatlar dərc ediblər. Məlumatlara görə, 1902-ci ildəki zəlzələ zamanı şəhərin 2.000 nəfərdən artıq sakini həlak olub, minlərlə insan yaralanıb, 20.000 nəfərədək əhali evsiz-eşiksiz qalıb, 4 min yaşayış evi, 8 qədim məscid, iki kəlisa, 10-dan artıq mədrəsə, 40 qədim şərq hamamı, onlarla ticarət obyekti, bazar-dükan dağılaraq yerlə yeksan olub. Şəhərdə zəlzələ sonrası böyük panika yaşanıb, əhali qorxu içərisində qaçışmağa başlayıb. Zəlzələ nəticəsində şəhərdəki 5.000 evdən 4.000-ni tamamilə dağılmış, həmçinin Şamaxı qəzasında yerləşən 126 kənddə 3.000-dən çox ev, 40 məscid və çoxlu təsərrüfat tikililəri dağılmışdı.

1139-cu ildə Gəncə zəlzələsi nəticəsində Kəpəz dağı uçaraq Ağsu çayının qarşısını kəsib və Göygöl, Maralgöl, Ceyrangöl, Ördəkgöl, Zalugölü, Ağgöl, Qaragöl və Şamlıgöl yaranıb. Bəzi mənbələrə görə, 230 min, bəzilərinə görə isə 300 min insan həlak olub. 1859-cu il 5.9 bal gücündə Şamaxı zəlzələsi nəticəsində Şamaxı şəhəri tamamilə dağımışdı, buna görə Şamaxı quberniyasının mərkəzi Bakıya köçürülüb və quberniyanın özünün adı da yenilənib - Bakı quberniyası. 8. Ağdaş - 1999-cu il. 5.4 bal gücündə. Zəlzələ nəticəsində insan itkisi olmasa da, 100-dən çox ev dağılıb, çoxlu sayda ev isə qəzalı vəziyyətə düşüb. Ağdaşda və digər məkanarda baş verən zəlzələ nəticəsində Azərbaycan xalqı da bu ağrı-acını yaşayıb.

## ”SON CANIMIZA QƏDƏR TÜRKİYƏNİN YANINDAYIQ”

Belə bir vəziyyətdə Azərbaycanın Türkiyənin yanında olması qardaşlığı söykənir. Azərbaycan Türkiyəni bu çətin zamanında ondan qardaş əlini əsirgəməyib. Bildiyimiz kimi, 2021-ci ildə Türkiyədə baş verən meşə yanğınları zamanı Azərbaycan qardaş Türkiyənin yanında oldu. Yanğının söndürülməsi və daha geniş miqyas almasına imkan verilməməsi məqsədilə Türkiyəyə yardım dəstələri göndərmişdir. Dövlət başçısının tapşırığına əsasən, Fövqəladə Hallar Nazirliyinin yanğınsöndürmə qüvvələrinin 100 əməkdaşından ibarət birinci qrup iyulun 30-da Türkiyəyə yola salınmışdır. Daha sonra isə həmin ilin avqustun 1-də FHN-in daha bir yanğın-xilasetmə qrupu Türkiyəyə yola salındı. İkinci qrupa bir helikopter, 53 yanğınsöndürmə və xüsusi təyinatlı xilasetmə texnikası, bir təcili tibbi yardım avtomobili, 220 yanğınsöndürən və xilasedici daxil idi. FHN-in yanğınsöndürmə əməkdaşlarından, hava nəqliyyatı və texnikadan ibarət qüvvələri Türkiyədəki meşə yanğınlarına qarşı mübarizədə fəallıq göstəriblər. Yanğınlar zamanı həmyerlilərimizin fədakarlığı türk qardaşlarımız tərəfindən rəğbətlə qarşılandı. Yanğınlar zamanı yanan evlərdən Türkiyə bayraqlarının çıxarılması da diqqəti çəkən oldu. Azərbaycanlı yanğın söndürənlər əsl qardaşlıq, ərənlik nümayiş etdirdilər. Marmarisdə yanan evdən Türkiyə bayrağını çıxaran Fövqəladə Hallar Nazirliyinin əməkdaşı ”Evə daxil oldum, baxdım ki, insan yoxdur. Bayrağı gördüm və özümlə götürdüm. İnsan necə önəmlidirsə, bayraq da o qədər önəmlidir. Son canımıza qədər Türkiyənin yanındayıq”, - deyə bildirmişdir. Türkiyə bayrağı bizim bayraqdır. Azərbaycan, yaxud Türkiyə bayrağı, heç bir fərqi yoxdur. Bu, hər şeydən uca olan, dövlətin rəmznə çevrilən bayrağa münasibətdir.

Türkiyədə tüğyan edən meşə yanğınlarında azərbaycanlıların can yandırması qardaşlıq, bir can olmağımızın rəmzinin nümunəsidir. Türkiyəli qardaşlarımızın Azərbaycana qarşı münasibəti də qürurvericidir. Son günün reallıqları, sınağı bizə bir daha deməyə əsas verir ki, iki qardaş dövlətin dostluğu əbədi və sarsılmazdır. Tarixən bu, belə olub və olacaqdır. Azərbaycan hökuməti və xalqı hər zaman olduğu kimi bu gün də qardaş Türkiyə xalqı ilə həmrəydir və onun yanındadır.

Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri bütün sahələrdə uğurla inkişaf edir. Türkiyə və Azərbaycan arasında mövcud olan əməkdaşlıq və strateji tərəfdaşlıq dövlətlərarası münasibətlərin inkişafında dostluğa, qardaşlığa söykənir. Mövcud münasibətlərin böyük tarixi var. Qarşılıqlı etimada, əməkdaşlığa söykənən bu əlaqələr müasir dövrümüzdə daha da möhkəmlənir. Ulu Öndər Heydər Əliyevin bir millət, iki dövlət olaraq xarakterizə etdiyi Azərbaycan-Türkiyə dövlətləri arasındakı münasibətlərin yüksələn bir xətlə inkişafı əlbəttə ki, hər iki ölkə rəhbərliyinin həyata keçirdiyi uğurlu siyasətin məntiqi nəticəsidir. Keyfiyyətcə yeni müstəviyə qədəm qoyan münasibətlərin nəticəsində müxtəlif məzmunlu tədbirlər keçirilir və müqavilələr imzalanır. İki ölkə arasında beynəlxalq əhəmiyyətli bir sıra regional layihələrin Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və s. təqdirəlayiqdir. Əbəs yerə vurğulanmır ki, bu gün Türkiyə-Azərbaycan arasındakı dostluq-qardaşlıq münasibətləri dünya üçün nümunəyə çevrilib və Azərbaycanın 44 günlük Vətən müharibəsində qardaş, dost ölkə olaraq ölkəmizin yanında olması bu münasibətlərin ali dəyərləri özündə əks etdirməsinin nümunəsi oldu. Hər zaman Azərbaycanın yanında olan Türkiyə 44 günlük Vətən müharibəsində, ölkəmizin haqq işində ona dəstək oldu. Ağrı-acını bizimlə birgə yaşadı. Zəfərimizi öz Zəfəri tək qəbul etdi. Bu gün Azərbaycan Qardaş Türkiyənin yanındadır, onunla həmrəydir və çətin günlərdə Türkiyə ilə birgə addımlayır.

## Azərbaycanlı vətəndaşlar Türkiyə üçün bir yumruq oldu!

Türkiyənin Kahramanmaraş vilayətində baş vermiş məlum zəlzələ nəticəsində yaralalanlara dəstək olmaq məqsədi ilə bu gün azərbaycanlı vətəndaşlar yardım kampaniyası həyata keçiriblər. SİA xəbər verir ki, onlar yaralılara lazım olan bütün əşyaları toplayaraq Türkiyəyə göndərilməsi üçün Bakı şəhərinin Babək prospektində onlar üçün ayrılmış yerə gələrək əşyaları təhvil verirlər.

***Zümrüd BAYRAMOVA***

# Ermənistanın direndiyi DALAN




**Onsuz da vəziyyəti gündən-günə ağırlaşan bir ölkə olan Ermənistanda fikir ayrılıqları, qütbləşmə hələ də hökm sürür və nə vaxta qədər davam edəcəyi bəlli deyil. Əks halda, hansısa bir məxrəcə gələrək ölkələri üçün doğru, düzgün yolu seçə bilərdilər. Bunun isə əksini müşahidə etməkdəyik. İndi erməni "başbilənləri" arasında Azərbaycanla, Türkiyə ilə münasibətləri yaxşılaşdırmaq haqqında təkliflər verən də tapılır, amma onların sayı çox azdır və əksəriyyətinin başı bilən kimi görünmür deyə həmin ölkə dalana dirənib, nə edəcəyi, hansı yolu tutacağı barədə qərara belə sahib deyil.**

Bir neçə gün əvvəl, daha dəqiq desək, 3 fevral tarixində hakim "Mülki Müqavilə" partiyasından olan deputat Qurgen Arsenyan İrəvanda keçirilən parlament dinləmələrində guya "Azərbaycan tərəfindən Laçın dəhlizinin blokadaya alınması" mövzusunda çıxış edərkən bir sıra məqamlara toxunub və ölkəsi üçün məsləhətlər də verib, hansı ki, bütün bunlara diqqət yetirmək maraqlıdır, yerinə də düşür. Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşmasının, eləcə də Ermənistanın iqtisadi inteqrasiya layihələrində iştirakının tərəfdarı kimi çıxış edən bu deputat Paşinyan komandasının bir növ ideya daşıyıcılarından biri kimi tanınır və görünür, erməni baş nazir onun köməyi ilə erməni cəmiyyətinin "əhval-ruhiyyəsini", bu cəmiyyətin Bakı və Ankara ilə yaxınlaşmağa hazır olub-olmadığını araşdırmaq istəyir. Axı Paşinyan heç də onun fikri ilə razılaşlacağına əmin deyil və əks tərəfdən qorxduğu da bəllidir. Diqqətə çatdırmaq yerinə düşərdi ki, həmin Arsenyan Türkiyənin Ermənistanı heç vaxt təhdid etmədiyini və Gümrüdəki rus bazasının məqsədinin "Ermənistanı qorumaq deyil, Rusiya tərəfindən Türkiyənin təhdid edilməsi" olduğunu cəmi bir neçə həftə əvvəl də bəyan etmişdi. Buradan da bəlli olur ki, Paşinyan və onun komandası ictimai fikirdə nə isə formalaşdırmağa çalışması fonunda Ermənistan müxalifətindən bərk qorxur. Deməli, hələ də müxalifət axmaq ideyaları, məsələn, revanşist ideyaları daşımaqdadır və işğalçı ölkənin baş naziri də bunu yaxşı başa düşür deyə çıxılmaz, hətta çox çətin vəziyyətdədir.








Çətin vəziyyətdə olan təkcə Paşinyan deyil, bütövlükdə Ermənistandır, bu ölkə ictimiyyətidir, çünki uzun müddətdir ki, beyinləri, təfəkkürləri çürük ideyalarla zəhərlənib. Həmin o çürük ideyalar, başqalarına məxsus olanı mənimsəmək, özününküləşdirmək, təkəbbürlülük kimi bir zəhər bu ölkəni işğalçılığa, separatçılığa sürükləyir. Ona görə də heç zaman sülh barəsində düşünmək fikri formalaşmır və indi bu zəhərin zərdabı tapılmasa, bu ölkədə nə sabitlik, nə inkişaf, nə sağlam mühit olmayacaq. Məhz bu zəhər, çürük ideologiya Ermənistanı sıxışdırıb çıxılmaz vəziyyətə salıb və bir növ dalana dirəyib. Bu ölkə nə sülh, əmin-amanlıq, rahat, stabil yaşayış, qonşu dövlətlərlə münasibətlərin normallaşdırılması barədə düşünə bilir, nə də öz vəziyyətini belə normallaşdırmaq imkanına sahib deyil.

Haqqında bəhs etdiyimiz deputat, "Mülki Müqavilə" partiyasından olan deputat Qurgen Arsenyan İrəvanda keçirilən parlament dinləmələri zamanı öz çıxışında qeyd edir ki, Ermənistan müxalifəti davamlı olaraq Qarabağda yaşayan ermənilərin taleyi barədə guya narahat olduğunu bəyan edir, amma Ermənistanda yaşayan ermənilərin taleyi həqiqətən də onları maraqlandırmır. Həqiqətən də çox təzadlı bir məqamdıq ki, bu ölkədə revanşizm deyə bağıraraq, Qarabağda yaşayan 25-30 min ermənin taleyini guya düşünənlər ölkələri daxilindəki 2-3 milyon insanın vəziyyətini heç düşünmürlər. Yaxud, belə bir sual ortaya çıxır ki, öz ölkəsində yaşayan milyonlarla erməninin taleyini, acınacaqlı vəziyyətini, görünməyən gələcəyini düşünməyənlərin qonşu ölkəyə, Azərbaycana məxsus Qarabağ ərazisində məskunlaşan bundan yüz dəfə az sayda erməni əsillinin vəziyyətini düşünməsi inandırıcı ola bilərmi? Əlbəttə, ola bilməz və bu zaman daha bir sual peyda olur ki, bəs o zaman həmin o Ermənistan müxalifətinin, revanşist ideyaları təbliğ edənlərin, məqsədi nə ola bilər? Təbii ki, erməni cəmiyyətinin beynini yenə də zəhərləmək və bulanıq suda balıq tutmaq, yəni öz məqsədlərinə nail olmaq. Məhz Ermənistanın dirəndiyi dalan da bax budur.

Əgər bir ölkənin istər müxalifəti, istərsə də hakimiyyəti həmin ölkənin vətəndaşlarının vəziyyətini düşünmürsə, əksinə, öz dividentləri naminə öz maraqlarından çıxış edirsə, həmin ölkənin halı çox acınacaqlıdır. Gələcəyi belə qaranlıq görünür. Bu bir reallıqdır ki, İrəvanla Bakı və Ankara arasında münasibətlərin normallaşdırılması həm Ermənistan dövlətinin, həm də bu ölkənin vətəndaşlarının maraqlarına xidmət edir. Dalana dirənən Ermənistan üçün qonşu ölkələrlə münasibətləri normallaşdırmaq, iqtisadi əlaqələri bərpa etmək, bununla da stabilliyini, sabitliyini və gələcək inkişafını təmin etmək daha vacibdir, nəinki həmin o qonşu ölkələr üçün. Azərbaycanın da, Türkiyənin də kifayər qədər inkişaf tempi, iqtisadi əlaqələri var və bu ölkələrin Ermənistana heç bir ehtiyacı yoxdur. Əksinə, Ermənistanın özünün qonşu ölkələrlə əlaqələrin normallaşdırılmasına ehtiyacı var, özü də həddindən çox. Bax bunu qəbul etməyən ermənilər öz ölkələrini dalana dirəmiş olurlar. İstər Ermənistanın hakimiyyəti, istərsə də onun müxalifəti bu reallıqdan çıxış etmədikcə, ksenofobiya hökm sürdükcə həmin ölkə daha böyük sürətlə uçuruma yuvarlanır.

Erməni cəmiyyəti özgə torpaqları barədə uydurma xəyallar qurmağa və Qarabağ ermənilərı üçün guya "narahat olmağa" davam etdiyi vaxt Ermənistan vətəndaşları yaşayışlarını təmin etmək üçün bu ölkəni tərk edirlər, çünki həmin ölkədə yaşaya bilmirlər. Yoxsulluq, açıqnacaqlı vəziyyət Ermənistan vətəndaşlarını öz ölkələrini tərk etməyə vadar edir. Niyə həmin ölkənin "başbilənlərini" bu heç narahat etmir? Yaxud, erməni cəmiyyəti niyə öz ölkəsində baş verənlərin, köklü problemlərin qayğısına qalmır, bu barədə düşünmür, amma qonşu ölkənin ərazisində məskunlaşan etnik ermənilər haqda düşünməli olur? Əslində, onların vəziyyəti barədə narahat olmağa dəyməz, çünki onlar yoxsulluq və səfalət içərisində olan Ermənistanın deyil, tezliklə inkişaf etmiş, güclü, qüdrətli Azərbaycanın vətəndaşı olacaqlar, monoetniklik yaradan zəhərdən azad olaraq, multikultural cəmiyyətdə yaşayacaqlar və onların rifahı da yaxşılaşacaq. Vay o hayların hayına ki, bundan sonra hələ də çürük ideyalarla zəhərlənməkdə davam edirlər və zombiləşmiş şəkildə hələ də özlərini, öz ölkələrini dalana dirəməkdədirlər.

Xatırladaq ki, bir zamanlar Ermənistanın ilk prezidenti olmuş Levon Ter-Petrosyan, zamanın Ermənistanın əleyhinə işlədiyini, ermənilərin zəbt etdikləri torpaqların geri qaytarılmasının labüdlüyünü bəyan edəndə bu ona hakimiyyətini itirməsi, prezident vəzifəsindən uzaqlaşması bahasına başa gəldi və görünür Nikolu qorxuzan da elə budur. Belə çıxır ki, strateji baxışa malik olan yeganə erməni siyasətçi məhz o olub və dedikləri indi özünü göstərir. Təbii ki, əgər erməni cəmiyyəti bunu görmək istəsə. O, bəyan edirdi ki, Azərbaycan iqtisadi cəhətdən güclənərək Qarabağı geri qaytaracaq və beynəlxalq hüquq, eləcə də ictimaiyyət tərəfindən də dəstəklənəcək. Belə də oldu, amma onun dedikləri görünür hələ də erməni cəmiyyətinə aydın olmadı və hələ də axmaq ideyalarla bu ölkənin işğalçılıq siyasətindən xilas olmasına, qonşu dövlətlərlə normal münasibətlər qurmasına mane olan çürük ideologiya hökm sürməkdədir. Elə bu da həmin ölkəni dalandan xilas olmağa qoymur.

***İnam Hacıyev***

# “İrəvan Azərbaycanın aparıcı elm və mədəniyyət mərkəzlərindən biri olmuşdur”





”XX əsrin əvvəllərinə qədər Bakı, Təbriz, Xoy, Naxçıvan və başqa şəhərlər ilə yanaşı İrəvan Azərbaycanın aparıcı elm və mədəniyyət mərkəzlərindən biri olmuşdur. Azərbaycanın elm və mədəniyyət tarixinə ”İrəvani” təxəllüsü ilə daxil olmuş və öz önəmli töhfələrini vermiş xeyli alimlərə, ədəbiyyat və incəsənət xadimlərinə rast gəlmək olar. Mirzə Qədim İrəvani, Fazil İrəvani, Aşub İrəvani, Mirzə Əli İrəvani, Dəlil İrəvani, Ləli İrəvani (Mirzə Əlixan Hükəma Ləli), Hacı Şeyx Əli Əsgər İrəvani və onlarla başqa bu kimi görkəmli şəxsiyyətlərin yaradıcılığı bunu bir daha təsdiq edir. Ümumiyyətlə, İrəvan ədəbi-mədəni, ictimai-siyasi mühitinin görkəmli nümayəndələrinin Şərq elmində, ədəbiyyatında, mədəniyyətində oynadığı müstəsna rolun təsiri bu gün də ədəbi-mədəni prosesdə duyulmaqdadır”. Bu sözləri SİA-ya açıqlamasında Qərbi Azərbaycan İcmasının üzvü, Azərbaycan Dövlət İqtisadiyyat Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru Cəlal Allahverdiyev deyib.

Onun sözlərinə görə, Azərbaycanda olduğu kimi, İrəvanda da məktəblər açılana qədər təlim müəssisəsi kimi yalnız məscidlərin nəzdində mollaxanalar və mədrəsələr fəaliyyət göstərmişdir: ”Mollaxana və mədrəsələr təkcə İrəvan şəhərində deyil, Uluxanlıda, Qafanda, Ağbabada, Basarkeçərdə, Vedibasarda, Sisiyanda və başqa bölgələrdə də fəaliyyət göstərmişdir. Bütün bunlara baxmayaraq, əsrlər boyu fəaliyyət göstərən mollaxana və mədrəsələr xalqımızın mədəni yüksəlişini təmin edə bilməmiş, onun inkişaf prosesini ləngitmişdir. XIX əsrin əvvəllərində Cənubi Qafqazda baş verən siyasi proseslər müxtəlif sahələrdə olduğu kimi, təhsil və məktəb sahəsində də yeni meyillərin yaranmasına səbəb oldu.Artıq təlim müəssisəsi kimi fəaliyyət göstərən mollaxana və mədrəsələr getdikcə tənəzzülə uğrayır və yerini dünyəvi məktəblərə verməyə məcbur olurdu. Cənubi Qafqaz, o cümlədən Azərbaycan xanlıqları Rusiya tərəfindən işğal edildikdən sonra həyatın bütün sahələri Rusiya tərəfindən idarə olunmağa başladı. 1829-cu ilin avqust ayının 2-də Rusiya Maarif Nazirliyi ”Zaqafqaziya məktəblərinin vəziyyəti haqqında” qərar qəbul etdi. Bu qərarda qəza məktəblərinin yaranması və ümumi təhsil sistemi ilə idarə edilməsi öz əksini tapmışdır. Həmin qərarın icrası ilə əlaqədar 1830-cu ilin mart ayında Tiflis qəza məktəbi, dekabr ayının 30-da isə Şuşa qəza məktəbi açılmışdı. Həmin ildə İrəvanda-100, Naxçıvanda-50, Ordubadda-50, Kulpda-50 şagirdlik qəza məktəblərinin açılması da nəzərdə tutulmuşdu. Amma həmin il üçün nəzərdə tutulan qəza məktəblərinin açılması mümkün olmamışdı”.

Cəlal Allahverdiyev sözlərinə davam edərək bildirib ki, Tiflisdən, Şuşadan sonra 1831-ci ilin oktyabr ayında İrəvanda ikisinifli ilk qəza məktəbi təsis edildi: ”Bu Cənubi Qafqazda təsis edilən sayca 3-cü qəza məktəbi idi. Cənubi Qafqaz məktəblərinin direktoru E.A.Qruberin əmri ilə İrəvan qəza məktəbinə ilk nəzarətçi (müdir) Moskva İmperator Universititetinin məzunu olmuş, Vladimir gimnaziyasının müəllimi F.Zboev təyin edilmişdir. İrəvan qəza məktəbinin təntənəli açılışı 1831-ci ilin noyabr ayında nəzərdə tutulsa da, bu, əyalətin rəisi general-mayor Vasiliy Osipoviç Bebutovun İrəvanda olmaması səbəbindən mümkün olmamışdır. İrəvanda ilk qəza məktəbinin açılışı 1832-ilin yanvar ayının 14-də olmuşdur. İrəvan qəza məktəbində ilk dəfə Azərbaycan dilini əslən Dərəçiçəkdən olan Mirzə Molla Tağı Mahmud oğlu tədris etmişdir. 1839 - cu ildən ikisinifli İrəvan qəza məktəbi 3 sinifli qəza məktəbi , 1 sentyabr 1868-ci ildən progimnaziya, 31 mart 1881-ci ildən isə 5 sinifli gimnaziyaya çevrilir. Gimnaziyanın direktoru isə Vladimir Brajnikov təyin edilir.

Bir müddət gimnaziyada şəriət və Azərbaycan dili dərslərini Mirzə Ələkbər Elxanov ,1885-ci ildən 1895-ci ilə kimi isə Firudin bəy Köçərli tədris etmişdir. İsmayıl bəy Şəfibəyovun, Məşədi İsmayıl Hacı Kazımzadənin, Mirzə Məmməd Şeyzadənin, Şeyx Əbu Səttar Əli Əkbər Kazımovun da gimnaziyada tədrisləyiq fəaliyyətləri olmuşdur.

Azərbaycan elminə öz töhfələrini vermiş dünya şöhrətli alim, akademik Mustafa bəy Topçubaşov, tanınmış ictimai-siyasi xadim, tibb elmləri doktoru, professor Əziz Əliyev, ictimai xadim Maqsud Məmmədov, görkəmli tarixçi alim professor Mehdixan İrəvanski, görkəmli dilçi alim Miryusif Mirbağırov, Teymur Makinski, Əkbər ağa Şeyxülislamov və onlarla bu kimi böyük şəxsiyyətlər, görkəmli elm, mədəniyyət, dövlət xadimləri İrəvan gimnaziyasının məzunları olmuşlar.

8 noyabr 1881-ci ildə İrəvanda daha bir təhsil müəssisəsi, təhsil tariximizin şərəfli səhifələrini şkil edən İrəvan Müəllimlər Seminariyası açılmışdır.

İrəvanda milli maarifçilik mühitindən danışarkən burada fəaliyyət göstərən qabaqcıl ziyalılardan olan Məmmədqulu bəy Kəngərlinskinin, Haşım bəy Nərimanbəyovun, Mirzə Cabbar Məmmədzadənin, Cəfər bəy Cəfərbəyovun, İbadullah bəy Muğanlinskinin, İsfəndiyar bəy Sultanovun, Abbas Razi Məmmədzadənin, Abbas ağa Fərəcovun, Rəhim Xəlilovun, Həsən bəy Qaziyevin, Həmid bəy Şahtaxtinskinin, Fəraməz bəy Mahmudbəyovun və başqalarının da adını fəxrlə qeyd etmək olar. Bütün bunlara baxmayaraq ermənilərin gah gizli, gah aşkar gah rəsmi, gah da qeyri-rəsmi şəkildə Ermənistanda Azərbaycan maarifini, mədəniyyətini sıxışdırmaqla bağlı siyasətləri İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin öz böyük potensialını bütöv şəkildə gerçəkləşdirməyə imkan verməyib”.

***Ləman Əlizadə***



**Elçin Bayramlı**

# Medianın inkişafı üçün ən optimal TƏKLİF

**Bir neçə gün əvvəl Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında media subyektlərinin vergidən azad edilməsinin 5 il müddətinə artırılması təklif edilib. Deputat Mahir Abbaszadə deyib ki, media subyektlərinin 5 il müddətinə vergidən azad olunması 15-16 milyon manata başa gələcək və dövlət üçün elə də yük olmayacaq”.**

Deputat Tahir Mirkişili isə bildirib ki, Azərbaycandan xaricə milyonlarla reklam pulları axır: ”Sosial şəbəkələrə baxsaq bunu görə bilərik. Bu gün sosial şəbəkələr reklam baxımından media subyeklərini üstələyir, onların daha çevik alətləri var. Vergi dəyişiklikləri media subyektlərinə də daha çevik işləməyə imkan verəcək”.

Komitənin iclasında iştirak edən Medianın İnkişafı Agentliyinin (MEDİA) icraçı direktoru Əhməd İsmayılov bildirib ki, bu güzəştlər eyni zamanda media subyektlərinin inkişafı və jurnalistikanın peşəkarlığının artırılmasına imkan verəcək. O qeyd edib ki, hazırda media reyestrindən olan subyektlərlə sıx işlər aparılır..

Vergi Məcəlləsinə dəyişikliyə əsasən, media subyektlərinin (kütləvi informasiyanın dərc olunması və (və ya) yayımlanması olan fiziki (jurnalistlər istisna olmaqla) və ya hüquqi şəxslərin) öz fəaliyyətləri nəticəsində əldə etdikləri gəlirlərin, o cümlədən reklam gəlirlərinin gəlir vergisindən, mənfəət vergisindən və sadələşdirilmiş vergidən, həmçinin ƏDV-dən azad edilməsi təklif edilir.

Məcəlləyə dəyişikliklər layihəsi qəbul ediləcəyi təqdirdə 2023-cü il yanvarın 1-dən tətbiq olunmaqla 3 il müddətində qüvvədə olacaq və audiovizual media subyektlərinə şamil olunmayacaq.

Qeyd etmək lazımdır ki, hazırda Azərbaycan mediası çox çətin vəziyyətdədir. Əksər qəzetlər nəşriyyat xərclərini ödəməkdə çətinlik çəkirlər. Bundan başqa, əksər redaksiyaların iş şəraiti, maddi-texniki bazası, jurnalistlərin əməkhaqqı çox zəifdir. Bu da medianın peşəkar fəaliyyətinə imkan vermir. Media orqanlarının vergidən azad olunması onların maliyyə problemlərinin həllinə dəstək olacaq. Lakin bu addım təkbaşına problemi həll etmək gücündə deyil. Ona görə də, biz daha optimal bir variant təklif edirik, hansı ki, burada dövlət heç bir maliyyə vəsaiti xərcləmir, amma media orqanları inkişaf edir.

Məlum olduğu kimi, Azərbaycanda sahibkarlıq subyektlərinə güzəştli və uzunmüddətli kreditlər verilir. Media orqanlarını da bura əlavə etmək kifayətdir ki, onlar da bu kreditlərdən götürüb özlərinin işini yüksək səviyyədə qursunlar. Bu halda dövlət pul xərcləmir, banklar kredit verir və buradan pul qazanır, üstəlik, media orqanları da özlərinin peşəkar işləmələri üçün lazım olan təchizatlarını təmin edirlər.

Burada yeganə problem odur ki, bir çox media subyektlərinin girov qoymağa lazım olacaq dəyərdə əmlakı yoxdur. Burada MEDİA qarant ola bilər. Müəyyən şərtlər qoyula bilər kredit üçün müraciət edən media orqanlarına. Uzun müddət davamlı fəaliyyət göstərən, ictimai nüfuzu yüksək olan, peşəkar media orqanlarının elə adı girov üçün təminat ola bilər. Yəni, media brendi özü girov ola bilər. Misal üçün, bir media orqanının adının, saytının, əmlakının bazar qiyməti 50 min manatdırsa, ona 30-40 min manat, 100 min manatdırsa, 70-80 min manat kredit verilə bilər.

Beləliklə, media orqanı özünün işini yüksək səviyyədə qura bilər, peşəkarlar cəlb edə bilər, ən son texnikalardan istifadə edə bilər. Maliyyə mənbəyini özü təmin edəcək mediaya dövlətin yardım etməsinə də ehtiyac qalmaz. Nəticədə bundan həm dövlət qazanar, həm media, həm də cəmiyyət.

# 29 saat sonra ana ilə 6 aylıq körpəsi xilas edilib

Türkiyənin Hatay vilayətində axtarış-xilasetmə işləri çərçivəsində 29 saat sonra ana ilə 6 aylıq körpəsi xilas edilib.

SİA Türkiyə mətbuatına istinadən xəbər verir ki, 30 yaşlı Hülya Yılmaz və 6 aylıq qızı Ayşe Vera Yılmaz dağıntılar altından sağ çıxarılıblar. Onlar müalicə üçün xəstəxanaya yerləşdiriliblər.



ANALİTİK+AKTUAL





# NATO Ankaradan imtinaya cürət edə bilməz

## Türkiyə Şimal Alyansının yeganə müsəlman ölkəsi olaraq bu qurumun təməlini təşkil edir

***Türkiyənin istər yerləşdiyi regionun, istərsə də dünya düzəninin siyasi-iqtisadi məkanındakı yerinin və rolunun xüsusi önəm kəsb etməsi danılmaz faktdır. Eyni zamanda, bu gün qardaş ölkənin mövcud iqtidarının beynəlxalq aləmdəki siyasi çəkisinin qəbul olunması da sözügedən reallığı kifayət qədər əks etdirir. Xüsusilə, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın bir neçə il əvvəl "Dünya beşdən ibarət deyil" fikrini önə sürməsi də belə qənaətə gəlməyə zəmin yaradır ki, artıq qlobal siyasi situasiyada yerlər dəyişdirilir və bu yerdəyişmədə Ankaranın özəl yeri vardır.***



### Türkiyənin dünya birliyində siyasi çəkisinin artması faktoru

Son vaxtlar bir sıra Qərb ölkələri Türkiyənin siyasi gücünü həzm edə bilmirlər və bunu nə qədər qəribə görünsə də açıq-aydın etiraf edirlər. Əsasən, Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının güclü siyasi mərkəz kimi çıxış etməsi, ölkənin güc strukturlarının regiona ciddi təhdidlər yaradan PKK, PJK, FETÖ və s. kimi təşkilatlara qarşı ardıcıl anti-terror əməliyyatları keçirməsi, o cümlədən, Avropadan Asiyaya, oradan isə Afrikaya qədər çevrələrdə öz maraqlarını təmin etməsi qeyd edilən qısqanclıqlara səbəblər yaratmaqdadır.

Son vaxtlarda isə Ankaranın İsraillə münasibətlərini əvvəlkindən də münbit şəkildə bərpa etməsi, eləcə də Rusiya-Ukrayna müharibəsində əsas vasitəçiyə çevrilməsi də bu ölkənin siyasi çəkisinin daha da artmasına öz təsirlərini göstərir.

### Ərdoğan Finlandiyaya "hə", İsveçə "yox" dedi

Türkiyənin hərbi və mülki sənayesinin texnoloji imkanlarını artırması isə göz önündədir. Bu imkanların artrılmasının hər birinin əsasında bir faktor dayanır: dünyanın hərbi-siyasi və iqtisadi-sənaye elitasında öncül yeri tutmaq və daha da tərəqqi etmək. Artıq bütün bu gerçəkliklər özünü hərtərəfli şəkildə isbatlamaqdadır.

Ankaraya qarşı həzmetməzlik sindromundan qaynaqlanan daha bir amil NATO-ya üzv olmaq arzusunda olan Skandinaviya ölkələrinin yanaşmalarında da müşahidə olunur. Yuxarıda da qeyd olunduğu kimi, Türkiyə Cümhuriyyəti monolit dövlət quruluşu olaraq terrorçuluğa qarşı amansız mübarizəsini davam etdirir və xüsusilə PKK-ya bağlı olan cinayətkarların bir qismi Finlandiya, İsveç kimi ölkələrdə siyasi sığınacaqlar tapırdılar. Düzdür, Finlandiya İsveçdən fərqli olaraq Ankaranın tələblərini yerinə yetirdi və öz ərazisində PKK-ya və bu təşkilatın üzvlərinə qarşı dəstəyindən əl çəkdi. Lakin İsveç hələ də Türkiyənin terrorçuları təhvil verilməsi tələbini rədd edir.

O da əbəs deyil ki, Türkiyənin prezidenti Rəcəb Tayyib Ərdoğan seçki ərəfəsində keçirdiyi toplantıların birində Finlandiyanın NATO-ya üzvlüyünə "hə" deyə biləcəklərini rəsmən bəyan etdi, amma İsveçlə bağlı öz qəti "xeyr" cavabının da qüvvədə qaldığını vurğuladı.

### Türkiyə NATO üçün çox qiymətlidir

Bu gün NATO-ya üzv olan bir sıra Qərb ölkələri Türkiyənin Şimal Alyansından xaric edilməsi təklifi ilə çıxış ediblər. Lakin bu təklifin həyata keçməyəcəyini bəri başdan da bəlli etmək mümkündür. Və nə qədər maraqlı görünsə də, Türkiyənin NATO-dan xaric edilməsinin mümkünsüzlüyü haqqında İsveçin aparıcı və iri media qurumu - "Dagens Nyheter" nəşri yazıb.

İsveç nəşri qeyd edib ki, Türkiyənin bu hərbi alyansdan xaric edilə bilinməməsinin 4 əsas səbəbləri var:

1. Hüquqi məsələ. NATO-nun nizamnaməsində ümumiyyətlə, hər hansı bir üzv ölkənin sonradan həmin qurumdan çıxarılması barədə heç nə yazılmayıb. Yəni bu, mümkün deyil.

2. Ölkənin coğrafi vəziyyəti və ölçüsü. Türkiyə strateji olaraq Rusiya Federasiyası ilə yanaşı yerdədir və Aralıq dənizi ilə Qara dənizi birləşdirən və Rusiyaya məxsus hərbi-dəniz bazasının yerləşdiyi Bosfor boğazına nəzarət edir. Türkiyənin təkcə bu əraziyə nəzarət etməsi əlbəttə ki, NATO üçün çox qiymətlidir.

3. Əgər Türkiyə NATO-dan xaric edilərsə Ankara mexaniki olaraq Rusiya Federasiyasına tərəf keçə bilər. Bu, Rusiya Federasiyasına strateji hədiyyə sayılar və transatlantik rabitəni tamamilə pozar.

### İsveçin "Dagens Nyheter" nəşri: "Türkiyə mürəkkəb oyun aparır..."

Və sonda - "Dagens Nyheter" nəşri qeyd edir ki, Türkiyə NATO-ya daxil olan ilk ölkələrdən biridir. SİTAT: "Baxmayaraq Ərdoğan hazırkı məqamda digər üzv-ölkələrə başağrısı verir, amma bu da davamlı hal ala bilməz. Yadda saxlamaq lazımdır ki, alyansın üzvü Türkiyə prezidenti deyil, Türkiyə dövlətidir. Baxmayaraq ki, Türkiyə NATO üçün "rahatsızlıq yaradır", lakin eyni zamanda, müharibə başlayanda Bosfor boğazında Rusiyaya məxsus hərbi gəmilərin qarşısını aldı, Ukraynanın tərəfini tutdu və bu ölkəyə PUA-lar göndərdi. Türkiyə mürəkkəb oyun aparır...", deyə İsveç qəzeti yazır.

Beləliklə, fakt budur ki, Türkiyə bütün dövrlərdə NATO üçün xüsusi önəm kəsb edən bir dövlətdir və bu ölkənin əslində dünya birliyinə ünvanlandığı bəyanatları həm də belə nəticə hasil etməyə imkan yaradır - Ankara qarşısına bir məqsəd qoyub: dünyanın beşdən ibarət olmadığını əməli qaydada isbatlamaq!

***Rövşən RƏSULOV***

# "Tələblər yerinə yetirilənə qədər aksiya davam edəcək"




"Ötən ilin dekabrın 12-də səhər saatlarından Xankəndi-Laçın yolunda başlayan aksiya bu günə qədər davam edir. Aksiya iştirakçılarının tələbləri ilk gündən olduğu kimi, dəyişməz olaraq qalır". Bunu politoloq Məhəmməd Əsədullazadə "Səs" qəzetinə açıqlamasında deyib.

Onun sözlərinə görə, ekoloqlar tələbləri yerinə yetirilənə qədər aksiyanı davam etdirəcəklərini bəyan ediblər: "Tələblərə əsasən, ilk növbədə, Ruben Vardanyan Qarabağdan çıxıb getməlidir. Azərbaycanın nəzarət-gömrük məntəqəsi tətbiq etməlidir. Azərbaycanın faydalı qazıntılarının qanunsuz çıxarılmasına son qoyulmalıdır. Digər tərəfdən, erməni silahlı birləşmələri bu ərazilərdən çıxarılmalıdır. Düşünürəm ki, Ermənistan tərəfi və rus sülhməramlıları tələbləri yerinə yetirməyəcəklərsə, ekoloqlar yolu açmayacaqlar. Çünki tələblər Azərbaycan üçün milli təhlükəsizlik və suverenlik məsələsidir. Erməni tərəfi və rus sülhməramlıları geri addım atmırsa onda Azərbaycan nəyə görə geri addım atmalıdır. Azərbaycan humanitar məsələlər istisna olmaqla bu prosesi daha da gücləndirməli və bütün yollara nəzarəti tətbiq etməlidir. Çünki biz növbəti mərhələdə erməni separatçılarının oraya silah sursat daşınmasına imkan verməməliyik. Hesab edirəm ki, ekoloqların etiraz aksiyası uğurla yekunlaşacaq. Azərbaycan bu yola ona görə çıxıb ki, prosesi müsbət həll etsin. Ona görə də, tələblər yerinə yetirilənə qədər aksiya davam edəcək. Sonda bizim istədiyimiz şəkildə bu proses yekunlaşacaq".

***Gülyana***

# Taleni Allah yox, biz yazırıq...

**Dünyaya insan gəlir. Hər gün... Yüzlərlə, minlərlə. Hər birinin də doğulmazdan əvvəl taleyi doğulur. Artıq o, dünyaya gələndə alnında yazısını da gətirir. Və elə o andan, o saatdan başlayaraq alın yazısı ilə həyatına davam edir.**

Biz dünyaya kişimi, qadınmı gələcəyik, buna qərarı Allah verir. Biz dünyaya hansı ayın hansı günündə gələcəyik, buna da qərarı Allah verir. Bəs biz hansı bürcə, hansı ilə aid olacağıq, bəli buna da qərarı Allah verir. Allahın qərarı ilə, yəni bizim hansı aya, hansı günə, hansı bürcə aid olmağımızla da xarakterimiz formalaşır, taleyimiz həmin bürcə, ilə, aya, günə uyğunlaşdırılmış şəkildə yazılır. Gəlin görək bu, həmişə belədirmi? Biz hər zaman Allahın verdiyi, yazısı, nəsibi ilə razılaşırıqmı?..

## Doğum günü: Allahdan, yoxsa bizdən?..

Zaman vardı ki, uşağın dünyaya gəlməsinə Allah hökm verirdi. Yəni ana hamiləliyinin doqquzuncu ayının sonlarına doğru övladının hansı gün, hansı saatda dünyaya gəlişindən xəbərsizcə onun yolunu səbirsizliklə gözləyirdi. Bu, gecənin yarısında da ola bilərdi, səhərin sübhündə də, gündüzün ortasında da...

Dünyaya uşaq gəlirdi. Allahın hökmü, yazısı ilə. Ona alın yazısı verilir. Doğum gününün hansı günə təsadüf etməsi ilə onun bürcü müəyyənləş ki, bu bürc insanın həyatında böyük əhəmiyyətə malik olur.

Aid olduğumuz bürc xarakterimizlə birləşir. Aid olduğumuz bürclə gələcəyimiz birləşir. Hətta kiminlə ailə qurub onu ömür-gün yoldaşına çevirə biləcəyimiz, bu evliliyin bizim üçün uğurlu və yaxud uğursuz olması da birbaşa bürclərimizlə bağlıdır. Çünki bütün bunlar alın yazısı deyilən məqamda birləşir və Allah-təaladan hər birimizə ərməğan edilir. Bu, o qədər böyük mənaya malikdir ki... Yəni bunsuz həyatımızı, xoşbəxtliyimizi, övladlarımızın gələcəyini təsəvvür etmək çətindir. Lakin gəlin görək, bütün insanlar üçün bu, belədirmi? Bəzi insanlar Allahın alın yazısı ilə barışırlarmı?

## Taleni özləri yazanlar...

Artıq biz bütün sahələrdə Allahın hökmünü pozduğumuz kimi, insanın dünyaya gəlməsi məsələsində də Allahın hökmünü pozmaqdayıq. Belə ki, artıq illərdir ki, analar övladlarının dünyaya gəlməsi günündən xəbərsizdir. O mənada ki, artıq həmin günü onların özləri müəyyən edirlər. Məsələn, bu ayın 15-i həyat yoldaşımın və yaxud oğlumun ad günüdür, bu uşaq da həmin vaxt doğulsa, yaxşı olar. Filan gün anamın doğum günüdür, elə uşağın doğuşunu da həmin günə salsaq, gör necə gözəl olar. Bu kimi onlarla nümunələr göstərmək olar ki, artıq uşağın dünyaya gəlmə tarixini valideynlər özləri təyin edirlər.

Bunun da başlıca səbəbi indi artıq qadınların "müasirləşməsi", təbii yolla deyil, süni yolla doğuşa, yəni keysəriyyə əməliyyatı ilə övladlarını dünyaya gətirmələrinə verdikləri üstünlüklə bağlıdır. Əvvəllər keysəriyyə əməliyyatı o qadınlarda aparılırdı ki, onlarda doğuş anında hansısa bir problemin olduğu müəyyən edilirdi və həkim qərar verirdi ki, bu qadın uşağı dünyaya gətirməklə öz həyatını itirə bilər. Belə olanda onun üçün keysəriyyə üsulu seçilirdi. Bu da çox təsadüfi xarakter daşıyırdı.

Lakin müasir cəmiyyətimizdə artıq təbii doğuşlar təsadüfi hallarda olur. İndi hər bir qadın demək olar ki, keysəriyyəyə üstünlük verir. Bu üsula üstünlük isə həm də uşağın Allah-təalanın yazdığı, bəxş etdiyi günə qarşı çıxmaq kimi qəbul edilməlidir. Çünki, artıq burada doğuş gününü qadın özü, həkimi və ailəsi müəyyən edir. Allah bu uşağın dünyaya gəlmə əmrini ayın 5-nə vermişdirsə, uşaq dünyaya gəlir 10 gün əvvəl. Beləliklə onun taleyinə yazılan bürclər də bir-birinə qarışır.



Keysəriyyə əməliyyatı (Qeyseriyye, Kesar, Sezarian)

## Öz bürcündən məhrum uşaqlar...




Bəli, beləliklə uşaq öz bürcündən ya əvvəlki, ya da sonrakı bürcə məxsus olur. Övladımız böyüdükcə, onda elə xarakterlərlə, keyfiyyətlərlə qarşılaşırıq ki, bunu heç cür ayırd edə bilmirik nə, bu, nə üçün belə olub. Məsələn, övladımız çox dəcəldir, ipə-sapa yatmayandır və yaxud onda qeyri-adi bir xasiyyət var. Belə olanda biz onun bürcünə baxırıq. Baxırıq ki, görək bu uşaqdakı xasiyyət barədə onun məxsus olduğu bürc nə deyir. Oxuyuq, onun bürcündə övladımıza aid heç bir şey görmürük. Belə olanda hələ bir bürclərə də inanmağa başlayırıq ki, əşi, bu bürclər də doğrunu söyləmir. Lakin bircə dəfə düşünmürük ki, axı biz özümüz övladımızın bürcünün yerini dəyişik salmışıq. Bu bürcü biz ona vermişik. Allahın qismət elədiyi gündə doğulsaydı, təbii ki, o öz bürcündə olacaqdı və biz bu qədər problemlə qarşılaşmayacaqdıq.

Uşaqlarda bəzi psixoloji hallar da yaşanır ki, bunun aradan qaldırılmasında təbii ki, məxsus olduğu bürcün göstəricilərindən istifadə etməklə müalicə aparmaq olur. Biz keysəriyyə doğuşla övladımızın dünyaya gəlmə tarixini dəyişməklə onun bürcünü də dəyişir və bütün hallarda əngəllər yaradırıq. Beləliklə...

## Bürcümüzə uyğun olmayan xarakterimiz

Sonra uşaqlar böyüyürlər. Hər kəs kimi onlar da zamanında bürcləri ilə tanış olmaq istəyirlər. Hətta ona da maraq edirlər ki, görək nikahda hansı bürclər bizim üçün uğurlu hesab olunur. Oxuyur, məlumatlanırlar. Lakin bu məlumatlar onlar üçün doğru hesab edilirmi? Əlbəttə, yox.

Məsələn, Allah övladımızı "Xərçəng" bürcünə məxsus olmasını istəyib, ona bu bürcün xasiyyətini, uğurunu, uğursuzluğunu, nə bilim, xeyrini verib. Öz bürcünə müvafiq insanlarla dost olmağı, öz bürcünə uğur gətirəcək bürclərdən olan qadınla, kişi ilə ailə qurmağı uyğun bilib. Bizim analarımız nə edir? Bizi "Əkizlər"də dünyaya gətirir. Biz də oluruq "Əkizlər" bürcündən.

Və yaxud "Qız" bürcünə məxsus olduğumuz halda "Şir" bürcünə aid zamanda dünyaya gəlirik. Əslində "Qız" bürcü ilə "Şir" bürcü arasında o qədər böyük fərq var ki, elə bu fərqlər də gələcək həyatımızı tamamilə bir-birinə qarışdırır. Nə ata-ana, nə baba-nənə, nə biz özümüz özümüzdən baş aça bilmirik ki, biz nə üçün şir kimi hökmranlıq etmək xarakterində deyilik. Hələ üstəlik valideynlər bizi qınamağa da başlayırlar ki, sən nə qədər bacarıqsızsan: nə üçün heç olmasa bürcünə çəkməmisən? Axı sən "Şir" bürcündənsən. Həmişə güclü, əzəmətli, hökmran, diktator olmalısan.



Düşünmürük ki, axı bu uşaq "Şir" bürcündən deyil, "Qız" bürcündəndir. O, diqqətlidir, çalışqandır, istək və arzusunun reallaşması üçün əlindən gələni edəndir və bir o qədər də məsuliyyətlidir. Lakin hökmranlığı sevmir, diktator olmaq istəmir. Bu, onun xarakterinə yaddır.

Zaman gəlir, sevib sevilirik. Sevdiyimizin bürcü ilə maraqlanırıq. Oxuyub məlumat alırıq ki, onun bürcü ilə bizim bürcümüzün nikahda uğuru var. Amma əslində belə deyil axı. Çünki bizim bürcümüzün yerini dəyişdirib valideynlərimiz. Ailə qururuq. Baxırıq ki, yox, xasiyyətlərimiz uyğun gəlmir. Əsla bir yerdə yaşamağımız mümkün olmur. Belə olanda bürclərə inamsızlığımız yaranır. Hansı ki, bürclər bizim həyatımızın astronomik tərəfidir və onu da Allah bizim üçün uyğunlaşdırıb.

## Nəinki bürclər, ay, gün, saat, an belə bir taledir

Valideynlərimiz bilsələr ki, bizim dünyaya gəlişimizi müəyyənləşdirən Allahımız onu necə incə detallarla düşünüb-daşınıb həll edib, əsla bu cür hərəkətlərə yol verməzlər. Nəinki bürc, bizim hansı ayda, gündə, saatda, hətta anda belə dünyaya gəlməyimizin özünəməxsus tərəfləri, taleyimizdə böyük tol oynayan məqamları var. Nə üçün bir iş görəndə deyirlər ki, kaş ki, işimizin üstünə filankəs gələrdi, ayağı çox uğurludur. Nə üçün qonşu səhər-səhər evdən çıxıb bir işin dalınca gedəndə darvazadan boylanır ki, görüm yan qonşu küçədə deyil. Bilir ki, qarşısına o çıxsa, işi alınmayacaq. Nə üçün biz xeyirli bir iş üçün gedəndə evdəki beş-altı ailə üzvündən məhz filankəsə deyirik ki, gəl bu işi sən başla? Çünki bu insanların günün hansı saatında dünyaya gəlməsi ilə bağlı uğurlu-uğursuz olmaları da müəyyən edilir. Sübh çağı, günorta və axşamçağı doğulan insanlar arasında günün vaxtlarına görə də fərqlər var ki, bu fərqlə həyatımızı başa vururuq.

Lakin müasir dövrümüzdə günləri də, saatları da, hətta ayları da dəyişdiririk. Bu adamın, necə deyərlər, ayağı sayalı olduğu halda, axşamçağı doğulub deyə onu o cür tanımırlar. Və yaxud da əksinə. Bəli, beləliklə də səhv addımımızla, doğum günlərinin üst-üstə, yanyana, yaxın, əlamətdar günlərlə qoşa düşməsi naminə talelərimizdə, həyat tərzimizdə də dəyişikliklər edirik. Belə olan halda isə...

## Allaha ehtiyac duymayanlar...

Bəli, belə olan halda ağıla gələn yalnız o olur ki, bəzi insanlar Allaha ehtiyac duymurlar. Yəni özləri üçün lazım olanı müəyyən edirlər. Hansı ki, onların hər birini bizə bəxş edən yaradıcı bir qüvvə var. Əgər o Yaradan olmasa, əslində heç nəyimiz olmaz.

Düşünürəm ki, oturub qarşımıza papağımızı qoyub fikirləşməyin vaxtı çoxdan çatmışdır. Lakin biz fikirləşməkdə də, düşünməkdə də hər zaman olduğu kimi gec qalırıq. Övladlarımız, onların gələcək taleyi naminə oturub fikirləşməliyik. Fikirləşdikcə də özümüzə sual verməliyik ki, əgər bütün bunlara biz qərar verməliyiksə, Allah nə üçündür bəs?

Nə üçün, nəyə görə övladımızın dünyaya gəlişinin real vaxtını gözləmirik? Nə üçün gözləməməliyik? Burada tələsik nə var ki? Axı nə üçün övladımızla həyat yoldaşımızın doğum günü eyni vaxtda olmalıdır. Nə üçün qızımızla nənəsinin ad günü eyni gündə qeyd olunmalıdır. Nə üçün oğlumuz böyük qardaşı ilə bir günün sevincini paylaşmalıdır... Filan tarixdə hansısa bir qohumun toyu olacaq və mən o toyda hökmən iştirak etməliyəm deyə nə üçün övladımızın doğum gününü qabağa çəkməliyik, bürcünü dəyişməliyik? Allahın ona bəxş etdiyi cümə gününü çərşənbə ilə, Allahın ona bəxş etdiyi sübh çağını axşamçağı ilə, Allahın ona bəxş etdiyi saatı başqa saatla əvəzləşdirməliyik? Nə üçün? Məgər biz tale yazanıq?

Taleni Allah yazır. Ulu Yaradanın bir anı belə min bir məna ilə, dəyərlə, qismətlə alaqəlidir. Allahın bəxş etdiyi doğum günü bizim Yaradanımızla bağımızdır. Allah bu bağla bizi idarə edir. Bizsə o bağı qopardırıq. Övladımızı gələcək çətinliklərlə üz-üzə qoyuruq. Elə bir çətinlik yaradırıq ki, nə o özünü tanıyır, nə də biz dünyaya gətirdiyimizi. Qalırıq müəmmalı nüanslar qarşısında. Sual dolu bir həyat qarşısında...

Bəsdir, deməyin vaxtıdır. Biz həyatımızın bütün tərəflərinə müasirlik gətirdik. Qapılarımızı Avropanın üzünə açdıq, dedik ki, gəl, xoş gəlmisən, keç yuxarı başa. O da keçdi oturdu yuxarıda. Nəyi istədi, verdik ona. Geyimimizdən tutmuş yeməyimizədək, hərəkətlərimizdən tutmuş davranışlarımızadək. Ta bu qədər yetər axı. İndi də doğum tarixlərimizi bada verməliyik? Belə olmaz axı. Analar Avropa qadınlarının yolu ilə gedib təbii doğuşa deyil, keysəriyyəyə üstünlük verəcək deyə, övladlar nə üçün bürcünü, ayını, gününü, saatını itirməlidir? Etməyin bunu, analar, böyüklər. Övladlarınızı məxsus olduqlarından məhrum etməyin.

***Mətanət Məmmədova***

SİYASİ RAKURS+ÖZƏL

# Aİ-nin monitorinq missiyası Ermənistana nə vəd edir?

## İstər Bakı ilə razılaşdırılmamış və fransız qoxusu verən monitorinq missiyası, istərsə də digər cəhdlər sadəcə boşuna edilmiş var-gəllər olaraq qalmağa davam edəcək

Artıq bir neçə müddətdir ki, Fransanın təhriki və inadkarlığı sayəsində Avropa İttifaqının monitorinq missiyası Ermənistanda fəaliyyət göstərir. Hələ ötən ilin dekabrında Aİ-nin mətbuata verdiyi press-relizində bildirilmişdi ki, Avropa İttifaqının Ermənistandakı monitorinq missiyası üçün razılıq əldə olunub. Eləcə də, Aİ-nin nin Xarici Siyasət və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Cozep Borrell bildirmişdi ki, "40 ekspertin monitorinq üçün Ermənistana yerləşdirilməsi səmərəli nəticə verir". Onun sözlərinə görə, "Aİ-nin Cənubi Qafqazda fəaliyyətində yeni mərhələyə başlayır" və "Aİ-nin Ermənistandakı daha uzunmüddətli missiyasının əsas məqsədi regionda sülhə töhfə verməkdir".

### Missiya hələ də revanşizm hissləri ilə alışıb-yanan, sülh prosesini müxtəlif bəhanələrlə əngəlləyən bir ölkənin maraqlarınımı qoruyacaq?

İlk baxışdan deyilişi cəlbedici görünən bu fikirlərin isə rəsmi Bakının razılığı olmadan həyata keçirilməsi istər-istəməz suallar doğurur. Məsələn, Aİ-nin monitorinq missiyası birtərəfli qaydada Ermənistanda fəaliyyət göstərməklə, yaxud Azərbaycanın mövqeyini öyrənməməklə hansı müsbət nəticələr əldə edə biləcəyini düşünür? Yaxud, ortada rəsmi İrəvanın sülh prosesini əngəlləmək maraqlarının sübuta yetirildiyi bir halda - misal üçün, 44 günlük müharibədən sonrakı müddətdə ölkəmizin ərazilərində mina təxribatları törətdiyi, yüzlərlə vətəndaşımızın mina qurbanlarına çevrildiyi bir zamanda adıçəkilən missiya hələ də revanşizm hissləri ilə alışıb-yanan, sülh prosesini müxtəlif bəhanələrlə əngəlləyən bir ölkənin maraqlarınımı qoruyacaq? Bəs ədalətli yanaşma prinsipi və beynəlxalq hüquqa əsaslanan digər məsələlər necə olacaq? Göründüyü kimi, burada növbəti dəfə pərdəarxası məqamlar üzə çıxmağa başlayır.

### Yarım şəkildə hərbiləşdirilmiş missiya (?)

Bəli, Aİ-nin regionda dayanıqlı sülhün əldə olunması cəhdləri alqışlana bilər, amma bir halda - ikili standartlara yol verilmədən! Fəqət biz, yavaş-yavaş həmin ikili standartların yenidən baş qaldırdığının şahidlərinə çevrilməkdəyik. Buna isə kifayət qədər sübutlar var.

Artıq Ermənistanın özündə də etiraf olunur ki, monitorinq missiyası əvvəllər mülki missiya kimi qələmə verilirdisə, indi həmin missiya yarım şəkildə hərbiləşdirilmiş missiya olaraq fəaliyyət göstərir. Missiyanın tərkib hissəsinin artırılacağı barədə deyilənlər də sübut edir ki, Ermənistan necə deyərlər, öz ölkəsində əsl "hərbi-sülhməramlı missiya" görmək marağındadır. Bu missiyanın təmsilçiləri arasında sabiq kəşfiyyat rəhbərlərinin, təqaüddə olan generalların, keçmiş xüsusi təyinatlı polis rəislərinin çoxluq təşkil etmələri də artıq sirr deyil!



### Ermənistanın məqsədləri məlumdur: təxribatlarını davam etdirmək və layiqli cavabını aldıqda Azərbaycana qarşı ittihamlar yağdırmaq - əlbəttə ki, Aİ missionerlərinin vasitəsi ilə...

Məsələ ondadır ki, Ermənistan rəhbərliyi qərbli missionerlərin nəinki silahlı toqquşmaların olduğu ərazilərdə, eyni zamanda Azərbaycanla delimitasiya olunmamış qeyri-müəyyən sərhədlər boyunca yerləşdirməyə can atır. Burada iki məqsəd var: qəsdli təxribatları davam etdirmək, Azərbaycanın dərhal layiqli cavab verəcəyi halda, yəni Ermənistanla sərhədlərində dəqiqləşdirmələr aparmağa başlayacağı zaman Aİ missionerlərini araya salmaq. Amma bu da son deyil... İrəvanın maraqlarının təməl əsasında Rusiyanın hərbi bazalarının ölkədən çıxarılması planı birincilik təşkil edir. Yəni Rusiyanın Gümrüdəki 102-ci hərbi bazasını ölkə ərazisindən çıxarmaqla Ermənistandakı mövcudluğuna birdəfəlik son qoymaq. Göründüyü kimi, Nikol Paşinyan hökuməti bu vasitə ilə "əsrlərə söykənən qardaşlığı" pozmaq məqsədini açıq-aydın ortaya qoyub.

Məhz Fransanın - Ermənistanın böyük bacısının da son vaxtlardakı canfəşanlığı bu maraqlara hesablanıb. Paris xəyal edir ki, kiçik bacısı İrəvanın vasitəsi ilə Moskvanı bu regiondan çıxdaş edəcək, üstəlik, özü-öz hərbi strukturlarını baza şəklində təmin etməyə başlayacaq. Bu, həm Ermənistanın mövcud rəhbərliyinin, həm də Fransa iqtidarının birgə işləyib-hazırladıqları planlardır. Və maraqlıdır ki, Aİ-nin artıq hərbləşdirilmiş monitorinq missiyasında təmsil olunanlar da həmin plandan xəbərdardırlar!

### KTMT-dən imtina faktı da bütün bunları isbat edir

Paşinyanın iqtidara gəlməsindən sonra KTMT-nin o zamankı baş katibi Yuri Xaçaturovun həbs olunması da qeyd edilənləri kifayət qədər təsdiq edir. Və bu gün Ermənistan publik şəkildə öz ərazisində KTMT-nin planlı hərbi təlimlərinin keçirilməsinə qarşı çıxır, müvafiq sənədləri imzalamaqdan imtina edir və s. Nikol Paşinyan açıq ifadə edir ki, onun bundan sonra Rusiya ilə ciddi bağlantıları olmayacaq, XİN başçısı Ararat Mirzoyan isə, hətta əvvəlcədən Moskvaya planlaşdırılmış rəsmi səfərlərini belə icra etmir!

Hazırda cərəyan edən hadisələr isə Rusiya ilə qarşıdurma məsələsində kulminasiyanın çox yaxında olduğunu göstərir. Bu "hekayənin" sonunun isə, ümumiyyətlə, erməni dövlətçiliyi üçün faciəvi bitəcəyini bəri başdan ehtimal etmək heç də çətinlik yaratmır.

Yeri gəlmişkən, Rusiyanın XİN başçısı Sergey Lavrovun bu günə qədər səlis ifadə etmədiyi ifadələrini açıq və qəti şəkildə bəyan etməsi - yəni Ermənistanın 30 il boyunca Azərbaycan torpaqlarını işğala məruz qoyduğunu vurğulaması hələ ki, atılan ilkin addımlardır. Rusiyanın Gümürüdəki 102-ci hərbi bazası da hakimiyyət tərəfindən planlaşdırılmış etiraz aksiyalarına rəğmən öz yerində dayanmaqda davam edir...

### Biri bir qədər az, digəri isə bir qədər çox...

Növbəti sual yaranır ki, səhv kimdədir? Rusiyanın Ermənistana uzun illər etibar etməsimi səhvdir, yoxsa Ermənistan Rusiyaya bağlanmaqdamı səhvə yol verib?

Bildiyimiz qədər Rusiya son 30 ildə dəfələrlə öz erməni "qardaşlarını" xilas edib - həm iqtisadi, həm hərbi, həm də digər məsələlərdə. Ancaq bu, sondur və bir daha erməni tərəfi həmin xilaskarlıqları görə bilməyəcək. Ona görə də səhvi elə hər iki tərəf edib, sadəcə, biri bir qədər az, digəri isə bir qədər çox...

### Ermənistanla hər şey məlumdur, İranın aqibəti isə qalsın molla rejiminin öz seçiminə

Keçək daha bir məsələyə. Özü də kifayət qədər maraqlı və düşündürücü məqama. Çox maraqlıdır ki, bəs bu gün "Ermənistanın sərhədlərinin təhlükəsizliyi İranın təhlükəsizliyidir", "Zəngəzur İran üçün qırmızı xəttdir" tipli bəyanatlar verən, Qafanda tələm-tələsik konsulluq açan, ermənilərlə farsları əsrlərin qohum xalqları elan edən İran nə edəcək? Axı Ermənistanın təkidi ilə həmin sərhədlərə regiondan kənar ölkələrin "missiyaları" gəlməkdədirlər. Üstəlik, Fransa reallığı da ortada var-gəl edir. Ona görə də ehtimal etmək olar ki, müşkülə düşən yalnız Ermənistan deyil, elə İran da məngənəyə düşür. Amma Ermənistanın aqibətinin necə olacağı barədə hər şey məlumdur. Bir az da belə davam etsə bu ölkənin xəritədə qalıb-qalmaması məsələsi müzakirəyə çıxarılacaq. İranın aqibəti isə qalsın molla rejiminin öz seçiminə.

Azərbaycana gəldikdə isə... Rəsmi Bakı öz qətiyyətli sözünü deyib və bundan sonra da deyəcək. Bütün beynəlxalq qanunlara, konvensiayalara söykənən, eləcə də hüquqi tərəfdən də ədalətin yanında olan Azərbaycan, hətta özünə qarşı ikili standartlar tətbiq olunarsa belə öz prinsipial tələblərini icra etməyə daim hazırdır. İstər Bakı ilə razılaşdırılmamış və fransız qoxusu verən monitorinq missiyası, istərsə də digər cəhdlər, sadəcə, boşuna edilmiş var-gəllər olaraq qalmağa davam edəcək.

*Rövşən RƏSULOV*

---



# Xoya yox, Suriyaya...

MƏTANƏT

İran İslam Respublikasının rəsmiləri artıq Xoydakı zəlzələdən iki həftə keçməsinə baxmayaraq hələ də orada zərər çəkmiş insanlara yardım göstərmək fikrində deyillər. Əsasən azərbaycanlılar yaşayan bu əraziyə İran rəsmilərinin bu cür laqeyd münasibətinin arxasında nələr dayandığından az-çox xəbərdar olsaq da, lakin bunların heç biri əsas vermir ki, bir dövlət vətəndaşına bu qədər biganə yanaşsın.

Nə qədər yerində deyilmiş bir söz var: dost da, düşmən də acı gündə tanınar. Bu təbii fəlakətlər belədir ki, baş verdiyi andan etibarən yardım edilməzsə, insanlar olmazın çətinliyi ilə üz-üzə qalarlar. Hələ düşünəndə ki, bu cür fəlakətlər qışın belə soyuq günlərində baş verir, belə olan halda göz önünə ilk gələn insanların çəkdiyi əziyyətdir. Çünki qış fəsli onsuz da həyat üçün çətinliklər yaradır, bəs evi-eşiyi dağılmış, soyuğun-sazağın qarşısında qalmış, yeməyə çörəyi, yatmağa yeri, heç bir ərzağı, geyimi olmayan adamları düşünməmək olarmı?

İran çətinliklə qarşılaşan vətəndaşlarına özünü yaxşı tanıtdı. Zəlzələ bölgəsinə heç bir yardım göstərməməklə, üstəlik köməklik göstərmək istəyənlərə imkan verməməklə insan amilinə dəyər vermədiyini nümayiş etdirdi. Yəni bu ölkədə insana dəyər verilsəydi, əsrlərdir, orada yaşayanlar məlum zülmlərlə qarşılaşmazdılar. Ölüm hökmü və dar ağaclarından asılan kəndirlərlə ölümə yuvarlanmazdılar. Bu ölkədə haqq, ədalət olsa idi, minlərlə insanın haqqı əlindən alınmazdı. Danışan, səsi çıxan gecənin qaranlığında həbsxanalara salınmazdı. Baş örtüyünün bir az aşağı enməsi ilə görünən bir neçə tel saça görə gənc qadınların ömrü nöqtələnməzdi.

Baxmayaraq ki, ötən ildən dövlətə qarşı etiraz aksiyaları davam edir, insanlar əllərindən alınan bütün hüquq və azadlıqların qaytarılması üçün etiraz edirlər, belə bir vaxtda İranın zəlzələdən ciddi şəkildə zərər çəkib evsiz, sığınacaqsız qalan vətəndaşlarına yardım göstərməməsi məlum rejimi sona çatdırmaqdan başqa yolun olmadığını göstərir.

Son məlumata görə İranda davam edən etiraz aksiyalarında 71-i uşaq olmaqla, 528 nəfər hökumət məmurları tərəfindən öldürülüb. 19623 etirazçının saxlanıldığı və bunlardan 718-nin tələbə olduğu deyilir. Həbslərdən başqa, tələbələrin universitetlərdən qovulma faktları da artıb. Ümumilikdə 161 şəhərdə İranın idarəetmə sisteminə qarşı etiraz aksiyaları keçirilib, 144 universitetin tələbələri nümayişləri dəstəkləyib.

İranda son aylarda etirazçıların sayının belə sürətlə artması, molla rejimi nümayəndələrinin isə həbs və təqiblərdən əl çəkməməsi, üstəlik zəlzələdən zərər çəkən insanlara yardım göstərməməsi yeni-yeni narazılıqların yaranması ilə nəticələnir.

Son dövrlərin hadisələri fonunda İranda yaşayan azərbaycanlılara bu qədər biganə münasibət, Azərbaycan səfirliyində törədilən faciə bu rejimin dövləti, sözün həqiqi mənasında, idarə edə bilmədiyindən başqa bir şey deyil. Lakin etirazlara baxmayaraq hələ də rejimi canfəşanlıqla qoruyan dövlət nümayəndələri özlərini bu qədər etiraz dalğasından necə xilas edəcəklər, o da maraqlıdır.

Bu gün öz vətəndaşına yox, Suriyaya yardım göstərməyin isə yalnız bir adı var: utanmazlıq. Bəli, utanmayanın hər cür hərəkət etməsi mümkün olduğu kimi, İranın da vətəndaşına yardım göstərməməsi onun eynidir.

Haqq, ədalət isə heç vaxt bir küncdə qısılaraq qalmayıb. Zamanı, vaxtı gələndə itirilmiş haqq, ərşə qalxmış ədalət öz yerini tapıb. Elə molla rejimindən illərdir, əziyyət çəkən vətəndaşlarının haqqa, ədalətə qovuşması uzaqda deyil. Ümidvarıq ki, həmişəki kimi, haqq nazilər, lakin üzülməz...

# Rusiyalı ekspert: “Ermənistan müharibəyə hazırlaşdırılır”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən Müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması” istiqaməti çərçivəsində hazırlanıb*

**Yevgeni Mixaylov: "Rusiya bunun qarşısını almaq üçün daha sərt tədbirlər görəcək"**



Rusiyanın xarici işlər naziri Sergey Lavrov bu günlərdə Rusiya mətbuatına müsahibəsində KTMT-nin fəaliyyəti və Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması problemlərinə toxunaraq, ”Ermənistan uzun illərdir Azərbaycanın ərazilərini işğal edib. Rusiya çoxsaylı variantlar təklif etdi. Hətta əvvəlki Ermənistan rəhbərliyi də onları çox müsbət qarşılamırdı, heç vaxt iddia etmədikləri əraziləri saxlamaq istəyirdi. Məsələləri siyasi yolla həll etməyə ümidini itirdikdə Azərbaycan ona məxsus olan torpaqları hərbi yolla geri qaytardı”,- Lavrov bildirib.

Bundan əlavə, Rusiya diplomatiyasının rəhbəri bir daha vurğulayıb ki, ötən il Praqada Ermənistan, Azərbaycan və Avropa İttifaqı 1991-ci ilin dekabrında Alma-Ata bəyannaməsində göstərilən şərtlərlə sülh müqaviləsi bağlamağa hazır olduqlarına dair sənəd imzalayıblar. Bu sənəddə deyilir: yeni müstəqil dövlətlər arasındakı sərhədlər Sovet İttifaqının müttəfiq respublikalarının, o cümlədən Ermənistan və Azərbaycanın inzibati sərhədləri boyunca keçəcəkdir. Sonuncuya (Azərbaycana-red.) Dağlıq Qarabağ Muxtar Vilayəti də daxildir”,- Sergey Lavrov əvvəllər təsbit olunmuş tezisini təkrarlayıb.

Nazir xatırladıb ki, ötən ilin sentyabrında Azərbaycanla Ermənistan arasında eskalasiyadan sonra Ermənistan-Azərbaycan sərhədində KTMT missiyasının yerləşdirilməsi planı hazırlanıb. Lakin İrəvan, Lavrovun sözlərinə görə, missiyanı yerinə yetirməyə tələsmirdi. Nazir qeyd edib ki, təklif hələ də ”masa üzərindədir” və erməni tərəfi hazır olarsa, missiya ”bir-iki gün ərzində yerləşdirilə bilər”.

İkinci Qarabağ müharibəsi zamanı Rusiya prezidenti Vladimir Putinin ”Beynəlxalq hüquq nöqteyi-nəzərindən Qarabağ Azərbaycandır” tezisi, o cümlədən Lavrovun Ermənistanın məsul rəhbərliyinin öz vətəndaşlarına işğal altında saxlanan torpaqları geri qaytarılmalı olduqlarını başa salmalı olması barədə bəyanatı geniş diqqət çəkdi. 2022-ci ildə İrəvanın bəzən qeyri-müəyyən və təxribatçı siyasəti ucbatından Rusiya XİN-in bəyanatlarını ermənilər daha açıq şəkildə tənqid etməyə başladı.

Rusiya hər zaman Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Eyni zamanda, rusiyalı nazir ilk dəfə olaraq ”işğal olunub” ifadəsini açıq şəkildə işlədib. Və bildiyiniz kimi, diplomatiyada hər deyilən və ya əksinə, deyilməyən söz bir siqnaldır. Cənubi Qafqaz Strateji Araşdırmalar Mərkəzinin direktoru Yevgeni Mixaylov ”Moskva-Baku” portalına vəziyyəti şərh edib. Ekspertin şərhini oxucularımıza təqdim edirik.




- İlk dəfə Rusiya diplomatiyası açıq və aydın deyir: ”Ermənistan işğal edib”. Mən dəfələrlə vurğulamışam ki, işğalçı Ermənistan tərəfidir. Və bu baxımdan Ermənistanda insanlar son dərəcə hiddətləndilər. İndi bunu Sergey Lavrov açıq şəkildə deyir.

Fikrimcə, Sergey Lavrovun ilk dəfə belə bir məcrada səsləndirdiyi ifadə Ermənistanda təhlükəli proseslərin getdiyinin açıq etirafıdır. Təkcə respublikanın özü üçün deyil, regionda sülh üçün təhlükəlidir. Artıq açıq-aşkar Qərbin alətinə çevrilmiş Ermənistan Rusiyanın təsir zonasını tərk edərək Rusiyaya xəyanət etdi. İrəvan Rusiya, Azərbaycan və Ermənistan liderlərinin imzaladığı üçtərəfli bəyanatı yerinə yetirmək üçün öhdəlik götürüb və indi onları yerinə yetirmir.

Ermənistanda millətçilər artıq qışqırırlar: ”Rusiya bizi işğal edir, Fransa bizim xilaskarımızdır”.

Lavrov işğalla bağlı bu ifadədən istifadə edərək Ermənistana siqnal verdi ki, ”uşaqlar, diplomatik çalar bitmək üzrədir, əgər siz bunu başqa cür başa düşmək istəmirsinizsə, onda biz hər şeyi öz adı ilə çağıracağıq”. Bu, Kremldən verilən mesajdır ki, İrəvanı öz təsir zonasında saxlamaq, üçtərəfli bəyanatı yerinə yetirmək, regionda Rusiyanın bu gün ehtiyacı olmayan yeni təhlükələrin qarşısını almaq üçün daha sərt tədbirlər görüləcək.

Ermənistan bu illər ərzində Moskvanın səbrini daşdırıb və son bir ildə təxribat ardınca təxribat törədib, üstəlik, Rusiya üçün həssas bölgələrdə. Üçtərəfli razılaşmaların yerinə yetirilməməsi, KTMT missiyasının rədd edilməsi və Azərbaycanın razılığı olmadan Avropanın qondarma monitorinq missiyalarının öz ərazisinə ”sürüklənməsi”, Rusiya sülhməramlılarının mütəmadi olaraq tənqid edilməsi. Bunlar ”partlayışa” səbəb olmağa başlayan qıcıqlandırıcı amillərdir.

Gördüyümüz kimi, Moskva müntəzəm olaraq Ermənistan və Azərbaycanı sülh müqaviləsi imzalamağa çağırır. Niyə indi buna daha çox diqqət yetirilir? Çünki Qərb



konkret olaraq Cənubi Qafqazı öz nəzarətinə götürmək qərarına gəlib, regionu böyük geosiyasi oyuna cəlb etməyə, Ermənistan vasitəsilə Transqafqazı sirkələməyə çalışır. Türkiyə və İrandakı vəziyyəti gərginləşdirir. Rusiya indiki müttəfiqləri, tərəfdaşları, regiondakı dost ölkələri ilə birlikdə bunun qarşısını almalıdır.

Yeri gəlmişkən, görürsünüz ki, Rusiya son vaxtlar hər fürsətdə Gürcüstan hakimiyyətinin Qərbin təzyiqlərinə baxmayaraq, Rusiya Federasiyasına sanksiya tətbiq etmədiyini, vəziyyətə ayıq baxdığını vurğulayır. Moskva üçün Tbilisinin indiki vəziyyətdə özünü belə aparması vacibdir. Və Moskva dəfələrlə Gürcüstanla münasibətləri yaxşılaşdırmağa hazır olduğunu vurğulayıb. Qərb Moskva ilə Tbilisi arasında konstruktiv dialoqu pozmağa çalışır- artıq Rusiya ilə Gürcüstan arasında birbaşa uçuşların potensial açılmasının təhlükəsizliyə təhdid olduğu barədə bəyanatlar var. Qərb Transqafqaz üzrə Cenevrə müzakirələrini pozub. Gürcüstan bu gün Ermənistandan daha müstəqildir.

Ermənistan da Ukrayna kimi Qərbin əlində eyni oyuncaqdır. Qərb son erməniyə qədər Cənubi Qafqazda müharibəyə salmaq istəyir. Ermənistanın demək olar ki, bütün rəhbərliyi Sorosun nəzarətindədir. Ermənistanda qeyri-hökumət təşkilatları vasitəsilə Rusiyaya qarşı etiraz aksiyaları qızışdırılır və maliyyələşdirilir. Ermənistan müharibəyə hazırlaşır. Qərbin sabitliyin pozulmasına hansı səyləri yönəltdiyini görəndə biz başa düşürük ki, İrəvanın müntəzəm cəhdləri Rusiyanı Azərbaycanla münaqişəyə cəlb etmək üçün istifadə olunacaq. Amma bu baş verməyəcək. Bu isə yalnız Qərbə daha çox əsas verir ki, Ermənistanı öz mütəxəssisləri ilə doldursun ki, erməni hərbçiləri yetişdirsin. Bütün bunları, sadəcə olaraq, Ukraynadakı prosesləri müşahidə etdiyimiz kimi müşahidə etsək, Ermənistanda nə baş verəcəyini görmüş olarıq. Buna yol vermək olmaz. Rusiya, xüsusən də, müttəfiq sayılan bir ölkəni NATO-nun öz tərəfində döyüşdürməsinə imkan verməyəcək.

Zaman-zaman Aİ-nin Ermənistana yeni genişləndirilmiş missiyasının Azərbaycanla sərhədə göndərilməsi mövzusuna toxunan Moskva vurğulayır ki, İrəvan hazır olduğu halda bu zonaya KTMT missiyasının göndərilməsi imkanları hələ də qüvvədə qalır. Təbii ki, Bakı ilə İrəvan arasında sülhə sadiq olan dövlətlərdən (yəni bunlar Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına daxil olan ölkələrdir) ibarət missiya indiki şəraitdə ən yaxşı variantdır. O zaman missiya yerlərdə Qərb ”missionerlərinin” potensial təxribatlarına nəzarət edə bilərdi. İnanıram ki, Bakı Aİ yox, KTMT missiyasından daha çox razı olardı. Ermənistanın son vaxtlar KTMT ölkələrini ”Azərbaycanpərəst” (amma əslində, obyektiv və vicdanlı) mövqeyinə görə açıq şəkildə tənqid etməsi, İrəvanın KTMT ilə bir struktur kimi əməkdaşlığını əngəlləmək qədər irəli getməsi faktı. Görünən odur ki, Ermənistan regionda kənar bir ölkəyə çevrilmək istəyir. O, özünü tamamilə dağıdıcı aparır və həm özünün, həm də qonşularının rifahına xələl gətirir.

Ermənistan bu gün xaraba kimi görünür. Ölkə hakimiyyətinin bu gün gördüyü işlər ölkənin milli maraqlarına xələl gətirir. Ermənistan uğrunda mübarizə öz milli maraqlarını reallaşdırmaq üçün imkanlardan istifadə edəcək rəhbərlik ölkəyə gələnə qədər davam edəcək. Və maraq qonşularla dostluqdadır.

Eyni zamanda, hesab edirəm ki, təəssüf ki, KTMT-nin Ermənistanda missiyası artıq mümkün deyil. Ona görə də Rusiya Cənubi Qafqazdakı tərəfdaşları ilə əməkdaşlığı gücləndirməlidir. Azərbaycanla əməkdaşlığı gücləndirmək, İranın gözünü açmaq lazımdır ki, Ermənistan ərazisində Qərb koalisiyası yaradılır. Axı Ermənistanda Qərbin kəşfiyyat funksiyaları İrana yönələcək.

İran Azərbaycanla yaxşı münasibətlərdə maraqlı deyil? Boş söhbətdir. Düşünürəm ki, Rusiya Tehranla Bakı arasında münasibətləri hamarlaşdıracaq, qarşılıqlı faydalılıq və konstruktivliyi təmin edəcək vasitəçi kimidir. Çünki biz həm Azərbaycanla, həm də İranla müttəfiqik. Bu ölkələr arasında sülhün olmasında Rusiyadan başqa kim maraqlıdır? Moskva Ermənistandan qıcıqlandırıcı amil kimi istifadə olunmasına imkan verməyəcək. Qərbin bu istiqamətdə fəaliyyətini birgə səylərlə dayandırmaq lazımdır. Qərb istiqamətində məsələləri həll edib, cənuba keçəcəyik. İndi bizim vəzifəmiz, hələlik, Qərbin Zaqafqaziyada fəaliyyətinin zərərini minimuma endirməkdir.

***Tərcümə - Elçin Bayramlı***

Son səhifə
Səs
8 fevral
2023-cü il

## DİQQƏT: Azərbaycanda zəlzələ ola bilər?



"Yaxın ətrafımızdakı ölkələrdə baş verən zəlzələlərin Azərbaycandakı zəlzələ ocaqlarına heç bir təsiri yoxdur". Bu sözləri SİA-ya açıqlamasında Respublika Seysmoloji Xidmət Mərkəzinin informasiya şöbəsinin müdiri Vüsalə Rafiqqızı deyib.

Onun sözlərinə görə, bildiyimiz kimi, Türkiyədən öncə də Güney Azərbaycanda zəlzələ baş vermiş və bu Naxçıvan Muxtar Respublikasının sərhədyanı ərazilərində müəyyən qədər hiss olunmuşdu: "Amma ümumilikdə, Qafqaz regionu seysmik baxımdan aktiv bölgədə yerləşir. Həm Azərbaycanın, həm Türkiyənin, həm də digər qonşu ölkələrin ərazisi seysmik hesab olunur. Lakin buradakı zəlzələ ocaqlarının bir-biri ilə nə seysmoloji, nə də geoloji baxımdan əlaqəsi yoxdur. Ona görə də Türkiyədəki zəlzələnin Azərbaycandakı zəlzələ ocaqlarına təsiri yoxdur".

Vüsalə Rafiqqızı sözlərinə belə davam edib: "Heç kim zəlzələnin dəqiq proqnozunu verə bilməz. Seysmik zonalarda vaxtaşırı hiss olunan və hiss olunmayan zəlzələlər baş verir ki, bu da həmin zonalar üçün xarakterikdir. Yəni, Azərbaycanda yaxın vaxtlarda güclü dağıdıcı zəlzələ olacağı ilə bağlı yayılan fikirlərə bağlı bildirmək istəyirəm ki, bu fikirlərin heç bir əsası yoxdur. Panikaya düşməyin və bu fikirlərə inanmayın. Yalnız rəsmi dövlət qurumlarının açıqlamalarına diqqət etmək lazımdır".

*Ayşən*

# Bazarlarda qızıl qiymətinə satılan balıq kürüsü

**İnsan sağlamlığı üçün çox faydalı olduğu deyilən, lakin bahalı olan kürü balıq yumurtasıdır. Bəs, qidadan gözəllik sektoruna qədər geniş istifadə sahəsi olan kürü hansı balıqdan istehsal olunur və ən bahalı kürü hansıdır?**



SİA mövzu ilə bağlı araşdırma aparıb.

İlk öncə qeyd edək ki, kürü balıq yumurtalarına verilən ümumi addır. Hər balığın yumurtası kürü adlansa da, yemək üçün bütün kürü növlərindən istifadə etmək mümkün deyil. Kürü çıxarılan balıqların keyfiyyəti və çeşidləri müxtəlif və fərqli növlərə malikdir. Xəzər dənizindən çıxarılanlar ən qiymətli və keyfiyyətli kürü kimi tanınır. Kipper və nərə balığı kimi balıqlardan çıxarılan kürü ən dadlı və qiymətli kürülərdəndir. Qara rəng olan növü ən məşhur kürülərdən biridir. Beluga kürüsü qara rəngli ən bahalı və ən qiymətli kürü adlanır.

### Kürü necə istehsal olunur?

Kürü alınacaq balıq diri tutulmalıdır. Balıqların ölməməsi çox vacibdir. Çünki bu balığın içini açıb, sahib olduğu kürüdən götürməklə əldə edilir. Kürü götürüldükdən sonra balığın qarnı yenidən tikilərək dənizə buraxılır. Bu şəkildə bu tətbiq ilə dəfələrlə balıqdan kürü əldə etmək mümkündür. Kürü sortları arasında ən qiymətlisi olan beluqa kürüsü orta diametri 2,5 - 3 mm, kürünün rəngi isə qara olub, yağın dadını xatırladan hisslər yaradır. Bu kürü yalnız nərə balığından alınır. Bir balığın təxmini məhsulu kimi 15 kq kürü göstərilir.

Çin və Rusiya arasında Amur çayında balıqdan əldə edilən digər qiymətli kürü Kaluqa kürüsüdür. Kaluqa kürüsü Beluga kürüsündən daha kiçik və daha tünd rəng xüsusiyyətinə malikdir. Sevruğa kürüsü adi nərə balığından çıxarılan kürü növüdür. Asanlıqla tapılmaq imkanı ilə çox ucuz satılır.

Bizans imperatorları və İran şahları tərəfindən davamlı olaraq istehlak edilən bu yemək, o zamanlar imperatorların yeməyi adlandırılmasına səbəb olmuşdur. Kürü çox az və bahalı olduğu üçün zəngin sayılan qida növüdür. Ümumiyyətlə, bu qidanı maddi imkanı olanlar alıb dada bilər. İndi kürü ilə hazırlana bilən bəzi növ kremlər də satışdadır. Yüksək enerji və yüksək protein tərkibli kürü dərinin bərpasına da təsirli ola biləcək xüsusiyyətləri ehtiva etdiyi üçün bu sektorda da istifadə edilməyə başlanılıb. Dərini nəmləndirdiyi, qırışları düzəltdiyi və dəri problemlərinin həllini təmin etdiyi üçün yüksək cəmiyyətdə üstünlük verilən kremlər arasındadır.

Rusiya, İran və Azərbaycan kimi ölkələr kürü istehsal edən ölkələr sırasındadır. Azərbaycanda kürünün 80 faizi istehsal olunur. Türkiyədə çox istehsal oluna bilməyən kürü nadir hallarda tapılır. Yalnız Adana və Bodrum vilayətlərində kürü istehsalı üzrə yaradılmış müəssisələr var. Adanada istehsal olunan kürü xaricə ixrac edilir. Fiska adlı kürü Türkiyədə kefal balığından çıxarılan kürü növüdür.

Kürü ümumiyyətlə içki süfrələrinin məzəsi kimi də qəbul edilir. Ümumiyyətlə, yüksək keyfiyyətli və elit seqmentlərin istehlak etdiyi içkilər üçün iştahaaçandır. Çörəklərin üzərinə yayılaraq istehlak edilən kürü bəzi kremlər və souslarla da istehlak edilə bilər. Açıq şəkildə istehlak edilməsi tövsiyə edilmir. Onu tək istehlak etmək ağırdır və ağızda acı dad yaratmaq baxımından çox da xoş deyil. Qiyməti kifayət qədər baha olan kürü növündən asılı olaraq dəyişə bilər.

Beluga, Asietra və Sevruga kimi tanınan balıqların kürüsü olduqca keyfiyyətlidir. Ən çox tanınan növü olan qara kürü qida dəyəri baxımından çox zəngindir. Marketlərdə və ya restoran menyularında daha tez-tez rastlaşa biləcəyiniz qızılbalıqdan alınan qırmızı kürüsü də qidalı və qidalı yemək kimi diqqəti çəkir. Fərqli mədəniyyətlərdə səhər yeməyində istehlak edildiyi müşahidə edilsə də, dünya mətbəxində daha çox başlanğıc və ya salat kimi təqdim edilir. Çörəyin üzərinə ordövr şəklində təqdim etmək ideal seçim olacaq. Unudulmamalıdır ki, süfrəyə verməzdən əvvəl soyuducuda saxlamalı, mümkünsə buzlu bir qabda da servis etməlisiniz. Kürü ilə nəyin yaxşı getdiyini düşünürsünüzsə; Qızardılmış çörək, soğan və limonu itirməməyi məsləhət görürük.

### Kürünün faydaları nələrdir?

- Zehni açacağı düşünüldüyü üçün vacib imtahanlardan əvvəl tələbələrə tövsiyə olunur. Beyin gücləndirici təsiri var.
- B12 vitamini ilə zəngindir.
- Dəriyə faydasına görə də kürüyə üstünlük verilir.
- Əzələ və sümük inkişafını dəstəklədiyi üçün xüsusilə idmançılar tərəfindən seçilir.
- Xroniki yorğunluq hallarında enerji verici kimi yeyilə bilər.

Yaradıcı təqdimatlarla dünyanın ən bahalı restoranlarında özünə yer tapan kürüdən istifadə edəcək aşpazların bəzi detallara diqqət yetirməsi lazımdır. Qonaqlarınızı bu çox xüsusi məhsulla tanış etmək istəyirsinizsə, bu detalları nəzərdə saxlayın.

**1. Kürü təqdimatının incəlikləri**

Kürü metal qaşıq, çəngəl və ya oxşar əşyalarla təmasda olmamalıdır. Dadı bu şəkildə dəyişə biləcəyi üçün bazarda kürü qaşığı kimi satılan məhsullardan almalısınız.

**2. Kürünün saxlama qaydaları**

Saxlama müddəti uzun olan məhsul olmadığı üçün qutunu açdıqdan sonra 3 gündən çox olmamaq şərti ilə istehlak edilməsinə diqqət yetirməlisiniz. Siz artıq bilirsiniz ki, onu soyuducuda saxlamalısınız.

**3. Ən dəyərli kürü**

Bunu öyrənməyin yeganə yolu kürünün diametrinə baxmaqdır. Siyahının başında 2,5-3 mm ilə Beluga gəlir.

**4. Kürü yemək üçün ideal vaxt**

Əlbəttə ki, bir çox yerdə yaxşı kürü yeyə bilərsiniz, amma araşdırmalar göstərir ki, bu mövzuda Rusiya bir nömrədir.

Qida üzrə baş mütəxəssis Ağa Salamov: "Ən bahalı kürülər çəki balığından əldə olunur. Daha sonra beluqa, asetrin, Avropa ölkələrində geniş yayılmış kod balığının kürüsüdür ki, bunlar ən yaxşı kürülər sayılır. Təbii, ki qara və qırmızı balıq kürülərinin də inanılmaz faydaları var.

Qeyd edim ki, Xəzər dənizində çıxan balıqların kürüsü bir az bozumtul olur. Yəni, tünd qara olmur, biraz boza çalır. Asetrin və bölgə balığının kürüsü də bura aiddir. Yəni, o da açıq qara rəng olur. İşbazlar çox vaxt həmin rəngi almaq üçün rəngləndiricilərdən istifadə edirlər. Jelatindən və yaxud yumurtanın ağından götürüb süni kürü düzəldirlər. Bu biraz tünd rəng olur, həm də biraz diri qalır. Bu kürülərin saxta olduğu bəllidir. Məsələn, durna balığının kürüsünü də götürürlər və deyirlər ki, bu asetrin kürüsüdür. Saxta balıq kürülərini kapsula şəklində hazırlayırlar. Aqar-aqar deyilən bir maddə var, həmin o aqar-aqar sümüyün tozundan əldə edilmiş jelatindir və ona rəngləndiricilər vuraraq kürü adı ilə satırlar. Həm də ora dadlandırıcılar, balıq yağı vururlar və süni kürü düzəldirlər. Bununla tam boz rəng ala bilməsələr də qara alırlar. İkranın əsl rəngi boz rəng olur.

Məsələn, uzaq Şərqlə Xəzər dənizindən çıxan balıqlarda da fərq var. Xəzər dənizində çıxan asetrin balığının kürüsü biraz açıq rəngdə olur, amma uzaq şərqdə çıxan asetrinin balığı biraz tünd olur. Bu coğrafi dəyişikliklərdən də asılıdır. Amma biz Azərbaycandan danışırıqsa, yəni, Xəzər dənizindən çıxan kürülər biraz boz olmalı, tam qara rəng olmalı deyil.

Son olaraq qeyd edim ki, gecə korluğu deyilən bir xəstəlik var ki, balıq kürüsünün ona da faydaları var. Məsələn, göz üçün çox faydalıdır, halsızlığı aradan qaldırır, cinsəl problemlərə faydaları var, beyin inkişafında faydalıdır".

*Ayşən Vəli*

## Ərəblər indi də "Barselona"lı futbolçuya "elçi" düşüblər

**Səudiyyə Ərəbistanının "Əl Nəsr" klubu bu mövsümün sonunda azad agent olacaq " Barselona"nın yarımmüdafiəçisi Serxio Busketsə müqavilə təklif edib. Qol.az xəbər verir ki, bu barədə "Mundo Deportivo" məlumat yayıb. Bildirilib ki, 34 yaşlı ispan**



**futbolçu ilə müqavilənin iki il müddətinə bağlanması planlaşdırılır və futbolçunun özünə vergilər çıxdıqdan sonra mövsümə 18 milyon avro maaş təklif olunacaq. Bununla belə, Buskets digər variantları nəzərdən keçirməzdən əvvəl ilk olaraq Kataloniya təmsilçisinin təklifini görmək istəyir. "İnter Mayami" də Busketslə müqavilə imzalamaq istəyir.**

*Baş redaktor:*
Bəhruz Quliyev

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**